Günəş Şərqdən doğur!
№ 77 (5358), 2021-ci il
Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
1 may 2021-ci il (şənbə)




## Daha bir gənc müəllim koronovirusdan dünyasını dəyişib

Sumqayıt şəhəri İsmət Qayıbov adına 1 saylı orta məktəbin müəllimәsi Yeganə Cəbrayılova koronavirusdan vəfat edib.

(Səh.5)

Günün içindən...




## ABŞ Dövlət Departamenti izahat verdi

Baydenin 24 aprel açıqlamasının heç bir hüquqi nəticələri yoxdur

**1915-ci il hadisələri ilə əlaqədar ABŞ prezidenti Co Baydenin "soyqırımı" olaraq xarakterizə etdiyi son açıqlamalarının məqsədi ABŞ-ın məhkəmələri qarşısında Türkiyənin "suveren immuniteti"nə təsir etmək olmayıb.**

Bu barədə ABŞ Dövlət Departamentinin nümayəndəsi Ağ Ev rəhbərinin 24 apreldəki bəyanatını qanuni baxımdan hansı məna daşıya biləcəyi ilə bağlı sualını şərh edərkən deyib.

(səh.2)

## Azərbaycanın valyuta bazarında sabitlik qalır



Dövlət Neft Fondu 140 milyon dollara qənaət edib

(səh.5)

# Azad Rəhimov ABŞ-da xəstəxanada vəfat edib



**Məlumatı Gənclər və İdman Nazirliyinin Mətbuat katibi Səmayə Məmmədova yayıb**

(səh.2)



## Bakının gizlinləri üzə çıxır

Tarixi binanın üzərindəki mansard sökülür

(səh.8)

## Lavrovun qarşısına bir sıra tələblər qoyulacaq

Bakı-Moskva əlaqələrində müəyyən cavabsız suallar meydana çıxıb

(səh.3)

## ABŞ-ın Rusiyadakı səfirliyi ştatını 75 faiz ixtisar edəcək

(səh.5)

## 27 nəfər vəfat edib

1 196 yeni yoluxma faktı qeydə alınıb

(səh.7)

## Taksilər də avtobus zolaqlarından istifadə edə biləcək

(səh.6)



## "Müharibə insanın həyata baxışını dəyişir"

Vətən uğrunda savaşan və üç medalla təltif olunan zabit işsizdir

(səh.9)

## Hektarlarla ərazini zəbt edib

Şəmkirin həbs edilən icra başçısının Maral təsərrüfatı aşkarlandı



(səh.7)

# Pasxa bayramı paklığı, yeniliyi, dirçəlişi və xeyirxahlığı təcəssüm etdirir



## Prezident Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb

**Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

*"Hörmətli həmvətənlər!*

Müqəddəs Pasxa bayramı münasibətilə sizi - Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə və nümunəvi dövlət-din münasibətləri modelinə malik olan ölkəmizdə ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələri yüz illərdir ki, mehriban qonşuluq, dostluq və qardaşlıq mühitində vahid ailə kimi yaşayırlar. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas prioritetlərindən biridir.

Müasir dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız, o cümlədən pravoslav xristianlar ölkədə gedən böyük quruculuq işlərində və respublikamızın sosial-mədəni həyatında fəal iştirak edirlər. Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında xristian həmvətənlərimizin xidmətlərini yüksək qiymətləndirirəm. İnanıram ki, onlar Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə qüvvələrini səfərbər edərək bundan sonra da əzmlə çalışacaqlar.

Pasxa bayramı paklığı, yeniliyi, dirçəlişi və xeyirxahlığı təcəssüm etdirir. Bu əziz gündə bir daha hər birinizə xoş bayram ovqatı, ailələrinizə əmin-amanlıq, xoşbəxtlik və rifah arzulayıram.

**Bayramınız mübarək olsun!".**

## ABŞ Dövlət Departamenti izahat verdi

### Baydenin 24 aprel açıqlamasının heç bir hüquqi nəticələri yoxdur

**1915-ci il hadisələri ilə əlaqədar ABŞ prezidenti Co Baydenin "soyqırımı" olaraq xarakterizə etdiyi son açıqlamalarının məqsədi ABŞ-ın məhkəmələri qarşısında Türkiyənin "suveren immuniteti"nə təsir etmək olmayıb.**

Bu barədə ABŞ Dövlət Departamentinin nümayəndəsi Ağ Ev rəhbərinin 24 apreldəki bəyanatını qanuni baxımdan hansı məna daşıya biləcəyi ilə bağlı sualını şərh edərkən deyib.

Dövlət Departamentindən bildirilib: "Prezidentin son açıqlaması "Xarici Dövlətlərinin İmmuniteti haqqına" Qanunu ilə tənzimlənən ABŞ məhkəmələri qarşısında Türkiyənin suveren immunitetinə təsir etmək məqsədi daşımayıb".

*Xatırladaq ki, C.Bayden 1915-ci il Osmanlı hadisələri ilə bağlı çıxışı zamanı "soyqırımı" sözündən istifadə edib.*

## Paşinyan Yerevana qayıtmaq üçün xüsusi təyyarəni icarəyə götürdü



**Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan Rusiyanın Tatarısan Respublikasının paytaxtı Kazandan Yerevana qayıtmaq üçün 50 min ABŞ dolları məbləğində şəxsi təyyarəni icarəyə götürüb.** Bu barədə "Report" "Mediaport" teleqram kanalına istinadən xəbər verir.

Məlumata görə, Paşinyan artıq Yerevana qayıdır.

*Qeyd edək ki, daha əvvəl baş nazirin Kazana uçduğu təyyarədə texniki nasazlıq aşkar edilib.*

# Azad Rəhimov ABŞ-da xəstəxanada vəfat edib



### Məlumatı Gənclər və İdman Nazirliyinin Mətbuat katibi Səmayə Məmmədova yayıb

**Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov dünyasını dəyişib.**

**Bu barədə Gənclər və İdman Nazirliyinin Mətbuat katibi Səmayə Məmmədova bildirib.**

"Bir neçə dəqiqə bundan öncə mənəvi atamı, dostumu, böyük qardaşımı, ürək sirdaşımı, nazirimi itirdim. Bir müddət bundan öncə onunla danışanda: "Azad müəllim, nə olar, tez gəlin. Sizinlə bölüşməyə, danışmağa, məsləhətlərinizi almağa elə ehtiyacım var", yazmışdım. Cavabı: "Gözlə, gələcəm" olmuşdu. Azad müəllim, axı Siz hər zaman sözünüzə sadiq olmusunuz. Bəs bu dəfə niyə belə etdiniz? Niyə gözümü yolda qoydunuz? Sizsiz mənə çox çətin olacaq Azad müəllim. Qoyduğunuz boşluğun ağrısı hər zaman içimi göynədəcək, ürəyimi yandıracaq. Sizin yoxluğunuzla mən həyatımda ilk dəfə doğma itkisinin acısını yaşadım. Allah mənə 14 il Sizinlə çiyin-çiyinə çalışmağı, Sizdən öyrənməyi, Sizin məktəbi keçməyi mükafat olaraq nəsib etdi. Hər şey üçün çox sağ olun! Zəhmətinizi halal edin! Məkanınız cənnət olsun mərd, sözü, əməli bütöv, mərhəmətli MÖHTƏŞƏM İNSAN!

PS: Bu günlərdə dualarını əsirgəməyən, xoş sözlər yazan, cənab nazirin səhhəti ilə maraqlanan hər kəsə təşəkkür edirəm!", - deyə Səmayə Məmmədova özünün feysbukdakı səhifəsində qeyd edib.

Azad Rəhimov 1964-cü il oktyabrın 8-də Bakı şəhərində anadan olub. 1971-ci ildə Səbail rayonunda 134 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olub və 1981-ci ildə oranı bitirib. 1981-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna qəbul olub və 1986-cı ildə oradan ingilis dili müəllimi ixtisası üzrə məzun olmuşdur.

*Azad Rəhimov 1984-cü ildən 1986-cı ilə qədər Xətai rayonunda 245 nömrəli tam orta məktəbdə Komsomol Komitəsində vəzifəsində çalışıb. 1986-1987-ci illərdə sovet ordusu sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Ordudan təxris olunduğdan sonra 1987-ci ildən 1989-cu ilə qədər Azərbaycan SSR Lenin Komsomolu Gənclər İttifaqının Xətai Rayon Komitəsində şöbə müdiri vəzifəsində, 1989-1990-cı illərdə Azərbaycan SSR Gənclər İttifaqı Komitəsinin sədri vəzifəsində çalışıb.*

*1994-1998-ci illərdə "RosİMESKO" Məhdud Məsuliyyəti Cəmiyyətinin rəhbəri vəzifəsində, 1998-2006-cı illərdə isə "Italdizain" Qapalı Tipli Səhmdar Cəmiyyətinin rəhbəri vəzifəsində çalışıb.*

*Azərbaycan Prezidenti İlham Əliyevin 7 fevral 2006-cı il tarixli sərəncamına əsasən Azərbaycanın gənclər və idman naziri vəzifəsinə təyin olunub.*

*Azad Rəhimov ABŞ-da müalicə olunduğu xəstəxanada vəfat edib.*



## İlham Əliyev Litvanın xarici işlər nazirini qəbul edib

### Regional təhlükəsizlik məsələləri müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycan-Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olundu. Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırdı.

Söhbət zamanı Azərbaycan Respublikası-Avropa İttifaqı əməkdaşlığı məsələləri müzakirə edildi və Azərbaycan Respublikası-Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olundu.

## Yeni yaradılan "Qarabağa dönüş" İctimai Birliyinin sədri məlum olub



**Yeni yaradılan "Qarabağa dönüş" İctimai Birliyinin sədri məlum olub.**

APA-nın məlumatına görə, yeni yaradılan ictimai birliyin sədri Tural Gəncəliyevdir.

Qeyd edək ki, bu gün "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi buraxılıb və "Qarabağa dönüş" adlı ictimai birlik yaradılıb.

Bundan əvvəl Tural Gəncəliyev "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri olub.

## Rusiya və Ermənistanın Baş Qərargah rəisləri Moskvada görüşüb



**Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimov və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan Moskvada görüşüblər.**

APA-nın "Sputnik Armenia"ya istinadən verdiyi xəbərə görə, danışıqlar nümayəndə heyətləri səviyyəsində keçirilib.

Görüşdə hərbi sahədə Rusiya-Ermənistan əməkdaşlığına dair bir sıra məsələlər müzakirə edilib.

Bu, Rusiya və Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəislərinin aprel ayı ərzində ikinci görüşüdür. Buna qədər onlar aprelin 14-də Moskvada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) hərbi komitəsinin iclası çərçivəsində görüşüblər.



# Lavrovun qarşısına bir sıra tələblər qoyulacaq

## Bakı-Moskva əlaqələrində müəyyən cavabsız suallar meydana çıxıb

Xəbər verdiyimiz kimi Rusiya Xarici işlər naziri Sergey Lavrov 10-11 may tarixlərində Azərbaycana səfər edəcək. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova bildirib ki, Lavrov 5-6 may tarixlərində Ermənistanın paytaxtı Yerevanda olacaq.

4 gün sonra isə Bakıya gedəcək. Ekspertlərə görə, Lavrovun Azərbaycana səfəri 2020-ci ilin 10 noyabr və 2021-ci ilin 11 yanvar tarixlərində imzalanmış üçtərəfli bəyanatların icrasının sürətləndirilməsi məqsədi daşıyır. Vacib məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır ki, dəhlizin açılışının yubadılması isə ictimaiyyəti olduqca narahat edir. Həm də son günlər Rusiya ilə bağlı müəyyən neqativ və arzuolunmaz hadisələr də yaşanmaqdadır. Moskvanın cavab verməli olduğu xeyli suallar var. Lavrovun səfəri çərçivəsində bu məsələlərin müzakirəsi gözlənilir. **Sabiq dövlət müşaviri, professor Qabil Hüseynli "Şərq"ə açıqlamasında Rusiya-Azərbaycan münasibətlərində sərinlik olduğunu deyib.** Ekspertin fikrincə, bunun səbəbi Moskvanın tutduğu qeyri-obyektiv mövqedir: "Rusiya sülhməramlıları Qarabağda həddini aşır, qanunsuz addımlar atırlar. İndi də bizim torpağımızda parada hazırlıq görürlər. Separatçı Araik Arutyunyan Moskvaya dəvət edilir və s. Həmçinin, Azərbaycana açıq qərəzi olan Fransa ilə əlbir olaraq Minsk qrupu həmsədrlərini yenidən meydana sürməyə çalışır. Azərbaycan tərəfi Şuşada qalıqları tapılan "İsgəndər M" raketinin qalıqları ilə bağlı Kremlə dəfələrlə müraciət edib. Lakin məntiqli cavab almamışıq. Bütün bunlara görə Bakı-Moskva əlaqələrində müəyyən cavabsız suallar meydana çıxıb. Lavrovun səfəri zamanı bu məqamlara aydınlıq gətiriləcəyini düşünürəm. Digər problemli məsələlər də var. Xankəndidə yerləşdirilmiş erməni silahlılarına məxsus hərbi texnikaların bir hissəsi çıxarılsa da, canlı qüvvə hələ qalmaqdadır. Separatçılar arasında revanşist düşüncəyə qapılanlar, partizan müharibəsi xülyasına düşənlər var. Bu məsələlərin də müzakirə edilməsi ehtimalı böyükdür".

**Politoloq vurğulayıb ki, Lavrov qarşısında bir sıra tələblər qoyulacaq, gözləntilər diqqətə çatdırılacaq:** "Rusiya tərəfinin ermənilərin hay-küy saldığı "əsir" məsələsini və onları "narahat" edən mövzuları da gündəmə gətirəcəyi istisna edilmir. Görünən odur ki, Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Qarabağa, Şuşaya səfər edəcəyini açıqlaması Moskvanı əməlli-başlı silkələyib. Ərdoğanın gəlişi ilə bağlı xəbər həm erməniləri, həm də rusları panikaya sövq edib. Lavrovu Bakıya gətirəcək səbəblərdən biri də məhz budur".

**İsmayıl Qocayev**

# "İnsan var ki, birinci qrup əlillik alıb, amma futbol oynayır"





## Millət vəkili nazirin müdafiəsinə qalxdı

"Bu günləri çox təəssüf ki, əlillik dərəcələrinin müəyyən olunması ilə bağlı ciddi problemlər mövcuddur. Hazırda 38 min insan Qarabağ əlilliyini cibində gəzdirir. Yəni bəzi insanlar 2 mindən 5 min manata qədər rüşvət verərək saxta əlillik alıblar. İnsan var ki, birinci qrup əlillik alıb, amma futbol oynayır. Əslində isə birinci qrup əlilin ya iki ayağı, ya iki gözü, ya da ki, iki əli olmamalıdır. Məsələ burasındadır ki, bu kimi hallarda qurunun oduna yaş da yanır. Nəticədə onların içərisində nə qədər haqqı olanların da haqqı kəsilib atılır. Düşünürəm ki, bu kimi məsələlərə bir az daha ehtiyatla yanaşmaq lazımdır".

*Bu sözləri parlamentdə təmsil olunan Milli Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayev "Şərq TV"yə açıqlamasında deyib. Deputat həkim komissiyalarının da bu məsələlərdə düzgün fəaliyyət göstərmədiyini diqqətə çatdırıb:* "Həkim komissiyalarının fəaliyyətində bu günləri xoşagəlməz hallara rast gəlinir. Məsələn, komissiyalar nə yazır? "Xəstə müalicə oluna bilər", "Xəstənin vəziyyətində yaxşılaşma hiss olunur", "Ürəyi normal işləyir" və s. Yəni vətəndaşın bir ayağı, qolu, gözü yoxdursa və yaxud da ki, qaraciyəri serrozdusa, bunun nə dəxli var ki, əlləri normaldır, saçı və yaxud tükü var? Yəni bu kimi problemlərin bir vacib kökü də həkim müayinələrinin ikibaşlı qeyd edilməsidir. Həkim orda qeyd etməlidir ki, bu adam müalicə olunan deyil. Məsələyə birmənalı fikir bildirməlidir ki, nazirlik də orada düzgün qərar verə bilsin".

**R.Nurullayev texniki səhvlər səbəbindən də vətəndaşların ciddi problemlərlə qarşılaşdığını vurğulayıb:** "Tutaq ki, gəlirsiniz mənim yanıma. Deyirsiniz ki, nazirliyə yardımla bağlı müraciət etmək istəyirəm. Mənə müraciəti doldura bilmədiyinizi qeyd edirsiniz və bunu etməyimi xahiş edirsiniz. Bu zaman nə baş verir? Tutaq ki, sizin doğum iliniz 1981-ci ildir. Mən bir rəqəmi yazmıram və bu zaman bu sistemdə doldurulmayıb kimi göstərir. İki-üç dəfə gəlib deyirsiniz ki, "sizə hörmət edim, sən allah düz qoş edib, göndərin". Yaxud da vətəndaş gedir nazirliyə, orda kimlərsə bir rəqəmi pozur və deyir ki, sistem səhv göstərir: "Müraciət düzgün doldurulmayıb" yaxud da ki, "Yenidən müraciət edin". Axırda vətəndaş bezib rüşvət verir ki, doldurun bunu göndərsinlər. Yəni yerlərdə, hətta nazirliyin özündə də kimlərsə orada nöqtə və vergüllə məşğuldur. Bu məsələlərdə nazirlik səviyyəsində ciddi araşdırmalar aparılmalıdır. Təbii ki, bu problemin kökləri dərindir. Birbaşa demək olmaz ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi özü bilə-bilə hamının haqqını kəsir və insanları narazı salmaq istəyir. Əslə belə deyil. Əslində prezident tərəfindən onların üzərinə öhdəlik qoyulub ki, bu məsələdə tam şəffaflıq yaradılsın. Ancaq təəssüflər olsun ki, bu və digər səbəbdən bu prosesdə nə qədər insan günahsız qurbana çevrilib. Bizi ağrıdan tərəf də elə budur".

**Aynurə Pənahqızı**



# Dünyada münaqişələrin sayı artmaqdadır

## Tacikistanla Qırğızıstan arasında qarşıdurma nəzarətdən çıxacaq

"Dünyanı idarə edən və "parçala, hökm sür" siyasətini davam etdirən güclər yeni münaqişə ocağı yaratmaqdadır".

Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Xəyal Bəşirov deyib. O qeyd edib ki, Tacikistanla Qırğızıstan arasında baş vermiş münaqişə gündən-günə böyüyəcək və həllolunmaz hal alacaq:

"Artıq baş verən hadisələr nəticəsində vəziyyət nəzarətdən çıxıb. Tərəflərin baş verənlərə heç bir təsir imkanları olmayacaq. Diqqətlə fikir versək, görərik ki, dünyada bu günə qədər heç bir münaqişə həllini tapmayıb. Əksinə, münaqişələrin sayı artmaqdadır. Təsəvvür edin ki, dünyada gücü və mövqeyi ilə seçilən İsrail dövləti belə, yəhudilərin ərəb xalqlarının mərkəzində yerləşdirilməsi və əbədi münaqişə ocağına yuvarlanması ilə yaradılıb. Nəticədə həlli üçün işıq ucu görünməyən vəziyyət alıb. Bizi maraqlandıran Ermənistan-Azərbaycan münaqişəsi də eyni qəbildəndir".

**X.Bəşirov əlavə edib ki, zamanında bu əraziyə köçürülərək münaqişə tərəfi kimi regiona yerləşdirilən ermənilər də böyük bir planın tərkib hissələri olub:** "Sadəcə, Sovetlər Birliyi bu məkrli planın reallaşmasını özü də istəmədən 70 il gecikdirdi. Ancaq hələ ki, həllinə nail olmayan İsrail dövlətinin nümunəsini tətbiq edən Azərbaycan bu münaqişəni yalnız özünün zoru və gücü hesabına həll etmək qərarı verdi. Təbii ki, bunu dünya üzrə münaqişə müəllifləri Azərbaycana bağışlamaq istəmir və qisasını almaq istəyir. Qarşılarını alan Türkiyə faktoru ilə yanaşı Zəngəzur adlı dünyanın yeni iqtisadi və nəqliyyat arteriyası rolunu oynayacaq dəhliz amilidir. Ona görə də Qarabağ münaqişəsi bir neçə problemin qalmasına baxmayaraq, həllini tapmış problemdir. Geridə qalan müəyyən detallardır ki, müəyyən zaman ərzində qalib tərəfin diktəsi və reallığı əks etdirən şərtlərin təsiri ilə həllini tapacaq".

**Aynurə Pənahqızı**

# Əlaqələrimizdə heç vaxt soyuqluq olmayıb

## Litva həmişə Azərbaycanın mövqeyini müdafiə edib



Litvanın Xarici işlər naziri Gabrielius Landsbergis Bakıda səfərdədir. O, azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə mətbuat konfransında mühüm açıqlamalar verib:

"Ermənistanda olanda biz minalanmış ərazilərin xəritələri barədə onlardan da soruşduq. Biz soruşuruq ki, necə olacaq, bu sualı biz də Ermənistanın qarşısında qaldırırıq".

G.Landsbergis söyləyib ki, regionda təhlükəsizliklə bağlı vəziyyətin yaxşılaşdığını görürük, amma həll olunmamış məqamlar var: "Biz də düşünürük ki, nə edə bilərik? Regionda uzunmüddətli sülhün saxlanılması üçün tədbirlər görülməlidir. Bu, Azərbaycanın marağındadır, Azərbaycan da bilmək istərdi ki, sərhədin o tərəfindən təhlükə gəlməyəcək?".

**Azərbaycan-Litva münasibətlərinin dərin kökləri olduğunu deyən millət vəkili Asim Mollazadə "Şərq"ə bildirib ki, Litva xarici işlər nazirinin ermənilərin azərbaycanlılara mina xəritələrini verməməyi ilə bağlı açıqlaması böyük önəm daşıyır**: "Ümumiyyətlə, Azərbaycanla-Litvanın ikitərəfli münasibətləri hər zaman müsbət olub, çoxşaxəli əməkdaşlığı həyata keçirmişik. Bununla yanaşı Litvanın birinci prezidenti Avropa Parlamentinin üzvü olaraq hər zaman Azərbaycanın haqlı mövqeyini müdafiə edib. O, ümumiyyətlə, postsovet məkanında baş verən münaqişələrin mahiyyəti barədə çox böyük biliklərə malik olan şəxsiyyət idi. Litvanın Prezidenti Valdas Adamkus dəfələrlə Azərbaycana səfər edib və ölkəmizin bölgədə həyata keçirdiyi layihələri yüksək qiymətləndirib. Söhbət enerji, kommunikasiya və nəqliyyat layihələrindən gedir. Düşünürəm ki, Litva XİN başçısının ölkəmizə səfəri həm ikitərəfli, həm də Azərbaycan-Avropa Birliyi münasibətlərinin müsbət inkişafına xidmət edəcək".

**Yeganə Bayramova**

---

## Bakı bütün vəziyyətlərə hazır olmalıdır

### Qarabağda təxribatlar istisna edilmir



**"Rusiya ehtimal olunan təxribatdan yararlanıb açıq-aydın Ermənistanı müdafiə edə bilər"**

**"Yaxın zamanlarda rus əsgərlərinə qarşı mütləq bir silahlı hücum planı hazırlanacaq və elə bir formada icra ediləcək ki, proses Qarabağın dağlıq hissəsində yox, Ermənistanla sərhəddə baş versin".**

Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. Onun sözlərinə görə, nəticədə bir neçə rus əsgəri öldürülsün və Azərbaycan tərəfi əsas günahkar kimi göstərilsin: "Çox diqqətli olmalıyıq".

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında səslənən iddialara münasibət bildirib:** "Rusiya ilə Türkiyə arasında münasibətlərin pozulmasını, qarşıdurmanın başlanmasını istəyən qüvvələr var. Odur ki, Qərbin, o cümlədən ABŞ-ın əli ilə təxribat ola bilər. Lakin bu, Kremlin maraqlarına cavab vermir. Çünki Azərbaycan və Türkyə ilə Rusiya arasında münasibətlər pozular".

**Ə.Məmmədlinin fikrincə, provokasiyalar istisna deyil:** "Dediyim kimi, ABŞ Rusiya ilə Türkiyənin yaxınlaşmasını istəmir. Eyni zamanda Qarabağ məsələsindəki rolunu artırmaq niyyətindədir. Hətta, ola bilsin, Moskvadakı bəzi qüvvələr də təxribat barədə düşünürlər. Belə ki, Rusiya ehtimal olunan təxribatdan yararlanıb açıq-aydın Ermənistanı müdafiə edə bilər. Bir sözlə, rəsmi Bakı hər şeyə hazır olmalıdır".

**Kənan**

---

# Münaqişə su üstündədir

## Qırğızıstan Tacikistan arasında gərginlik çox keçmişə dayanır

Qırğızıstan ilə Tacikistan sərhədində yenidən toqquşma baş verib. İki gün davam edən qarşıdurmada hər iki tərəfdən ölənlər və yaralananlar olub. Olaylardan sonra Qırğızıstan Xarici işlər naziri Ruslan Kazakbayevlə Tacikistanın XİN başçısı Sirocaddin Muhriddin arasında telefon danışığı olub. Tərəflər sərhədyanı münaqişəni danışıqlar yolu ilə həll etməyin vacibliyini vurğulayıblar. Problemin həlli ilə bağlı işçi qrupun yaradılması barədə razılıq əldə olunub.



Son illər tərəflər arasında su üstündə bir neçə dəfə bu cür toqquşmalar yaşanıb. Axırıncı münaqişə aprelin 28-də Qırğızıstanın Batken rayonunun Kök-Taş kəndinin ərazisinə Tacikistan tərəfinin suya nəzarət etmək üçün videokameralar quraşdırmasından sonra başlanıb. Tacikistan tərəfi qırğız kəndinin əhalisini daşa tutub, ov tüfənglərindən istifadə edib. Qarşıdurma nəticəsində 1 nəfər ölüb, 46 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Qırğızıstan münaqişə zonasından 400-dən çox sakini təhlükəsiz ərazilərə köçürüb. Aprelin 29-da isə sərhədçilər bir-birinə atəş açıblar. Nəticədə Qırğızıstan tərəfi 13 vətəndaşının öldüyünü, 100-dək sakinin yaralandığını, qarşı tərəf isə 3 tacikistanlının öldüyünü, 31 sakinin yaralandığnı bildirib. Bundan sonra Qırğızıstanın Leylək rayonu ərazisində yerləşən "İnternatsional" kənd sovetinin məclis sədri Tacikistan vətəndaşları tərəfindən girov götürülüb. Aprelin 30-da Tacikistan silahlı qüvvələri Batken bölgəsinin Qızıl-Bel kəndinə hücum ediblər. Hərbçilər kəndi qumbaraatanlardan atəşə tutublar. Sərhəddə yerləşən yaşayış məntəqələrindən 20 mindən çox mülki vətəndaş təxliyə edilib. Prosesin nəzarətdən çıxmasından sonra Avrasiya Hökumətlərarası Şurası çərçivəsində Qırğızıstan və Tacikistanın baş nazirlərinin sərhəd münaqişəsini müzakirə etmək niyyətində olduqları açıqlanıb. Münaqişə ocağının söndüyü deyilsə də, problem həll olunmadığından gərginliyin yenidən baş qaldıracağı ehtimalı qalmaqdadır. Muhriddinin "Tacikistan ona aid olan torpaqlardan heç vaxt geri çəkilməyəcək" ifadələri də qarşıdurmanın davam edəcəyini göstərir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, eyni regionun iki müsəlman ölkəsi arasında yaşanan qarşıdurmalar təəssüf doğurur. Ekspertə görə, xüsusən, türk birliyinin üzvü olan Qırğızıstanın belə bir münaqişəyə qarışması arzuolunan deyil:** "Qarşıdurma anidən başlanmış kimi görünsə də, əslində iki ölkə arasında gərginlik keçmişə dayanır. Problem su üstündədir və arxasında başqa məqamlar, ziddiyyətli hadisələr var. SSRİ vaxtında Mərkəzi Asiya ölkələri, ümumiyyətlə ittifaqa daxil olan bütün dövlətlərin tarixi sərhədləri qeyri-bərabər müəyyən olunub. Hansısa ölkənin vilayəti müəyyən müddət ərzində başqa dövlətin tabeliyinə verilib. Mərkəzi Asiyada da kifayət qədər problemli bölgü aparılıb. Sovet imperiyası region ölkələrinin sərhədlərini qəsdən düzgün çəkməyib. Xüsusən, Qırğızıstan, Özbəkistan və Tacikistan arasındakı sərhədlərdə kifayət qədər anklav əyalətlər var. Bu da qonşu dövlətlər arasında gərginliyin bitməməsinə səbəb olur. Sovetlər Mərkəzi Asiyanı işğal edəndə bölgədə Alaş Orda adlı vahid dövlət var idi. Bu dövlətin tərkibində qazaxlar, özbəklər, türkmənlər, taciklər birgə yaşayırdılar. Sovet rejiminin qurulmasından sonra, ələlxüsus Stalinin dövründə eyni etnik kökə malik xalqlar planlı şəkildə bölünməyə başlandı. Bu siyasətin acı fəsadları isə ortadadır".

*T.Rzayev vurğulayıb ki, türk toplumunun özbək, qazax, qırğız, türkmən adları ilə ayrı-ayrı millətlərə bölünməsi vahid dövlətin də parçalanmasına gətirib çıxarıb:* "Mərkəzi Asiyanın siyasi xəritəsinə nəzər salsaq, bölgünün nə dərəcədə ədalətsiz və natamam şəkildə aparıldığını görərik. Bölgüdə etnik tərkib, regionun təbii resursları, su və torpaq ehtiyatları demək olar ki, nəzərə alınmayıb. Tacikistan ərazisində su ehtiyatları yox səviyyəsindədir. Qırğızıstan isə əksinə, "sular ölkəsi"nə çevrilib. Bu məqam iki ölkə arasında bitib-tükənməyən insidentin əsasını qoyub. Ümumilikdə SSRİ Tacikistanla Qırğızıstan arasında məqsədli şəkildə 80 dəfə xəritə dəyişimi edib. Amma münaqişənin uzanacağını düşünmürəm. Çünki tərəflər qarşıdurmadan yana olmadıqlarını bəyan ediblər".

**Siyasi təhlilçi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan iki ölkə arasında baş vermiş qarşıdurmaya Moskvanın səssiz qalmasına da münasibət bildirib:** "KTMT "Rusiyanın NATO-su" adlandırılsa da, effektsiz qurum olduğu hamıya bəllidir. Rusiyanın birbaşa müdaxilə etməməsinin səbəbi kənd sakinləri arasında baş vermiş sərhəd münaqişəsi olması ilə bağlıdır. Yəni Moskvanın hərbi müdaxiləsini zəruri edən gərginlik mövcud deyil. Burada söhbət potensial Ermənistan-Azərbaycan münaqişəsindən getmir. Sərhəd toqquşması və su ilə bağlı problem Mərkəzi Asiya regionu üçün adi haldır. Hindistan-Pakistan arasında da sərhəd toqquşmaları çox yaşanır, amma demək olar ki, dünyanın diqqətini cəlb etmir".

**İsmayıl Qocayev**

# Zamana qarşı yarışmalıyıq

## Zəngəzurun statusunun müəyyənləşməsi Qərb üçün də prioritetdir

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktor müavini, general-leytenant Stepan Melkonyan Zəngəzurda neytral zonanın yaradılmasını təklif edib. O bildirib ki, o zamana qədər hadisələrin qarşısının alınacağını söyləmək sadəcə fantaziyadır:



”Zəngəzurda neytral zonanın yaradılması gələcəkdə burada baş verə biləcək hadisələrin qarşısını almağa imkan verəcək. Hər iki tərəfdən, xüsusilə də bölgə sakinləri ilə digər tərəfin əsgərləri arasında təmasın istisna ediləcəyi neytral zona olmalıdır”. Onun sözlərinə görə, məlum səbəblərdən delimitasiya və demarkasiya aparılmazdan əvvəl təhlükəsizlik barədə danışmağın yeri yoxdur: ”O zamana qədər hadisələrin qarşısının alınacağını söyləmək sadəcə fantaziyadır”.

**Erməni tərəfinin Zəngəzurla bağlı təkliflərini ”Şərq”ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev deyib ki, 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli saziş bölgədə hərbi münaqişəni dayandırsa da, daimi sülhün imzalanmasına ehtiyac var.** Partiya funksionerinin qənaətincə, sazişin imzalanmasından 6 aya yaxın zaman keçməsinə baxmayaraq, Xankəndidəki separatçı rejim qanuni hakimiyyətlə, yeni Azərbaycanla əlaqələrin bərpa edilməsinə yönəlik addım atmaq barədə düşünmür: ”Ermənistan rəsmiləri isə Şuşanın və Xocavəndin qaytarılacağı barədə qıcıqlandırıcı bəyanatlarla çıxış edirlər.

“Ermənistanda iyun ayında keçirilən seçkilər və yeni hökumətin formalaşmasını gözləmək bizim üçün zaman itkisidir”

Hərçənd, bu bəyanatlar Paşinyana müxalif mövqedə dayanan Koçaryan və tərəfdarlarının dilindən səslənsə də, ictimai rəyə ciddi təsir edir. Bu səbəbdən Paşinyan daimi sülh sazişinin bağlanması istiqamətində qəti addımlar atmaqdan çəkinir. Zəngəzur dəhlizi ilə bağlı hər hansı irəliləyişin olması yaxın 3-4 ayda gözlənilmir. Ermənistanda iyun ayında keçirilən seçkilər və yeni hökumətin formalaşmasını gözləmək bizim üçün zaman itkisidir. Ona görə Prezident İlham Əliyev sərt və haqlı bəyanatları ilə Zəngəzur istiqamətindən Naxçıvana kommunikasiyaların açılması üçün təzyiqlər edir. ABŞ dövlət katibinin ölkə başçısı İlham Əliyevə zəng etməsi və söhbət zamanı dövlət başçımızın kommunikasiyaların açılmasını xüsusi vurğulaması bununla bağlı idi”.

**Analitikə görə, Zəngəzurun gələcəkdə yeni qaz kəmərlərinin tranzit ərazisinə çevirilmə imkanı var:** ”Avropa parlamentində Rusiya qazından imtina edilməsi istiqamətində qərar qəbul ediləcəyi gözlənilir. O baxımdan gələcəkdə Zəngəzur layihəsinin gerçəkləşməsi daha real görünür. Zəngəzurun statusunun müəyyənləşməsi Qərb üçün də prioritet təşkil edir. Laçın şəhərinin bütünlüklə Azərbaycanın idarəçiliyinə qaytarılması da eyni dərəcədə mühüm əhəmiyyətə malikdir. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Stepan Melkonyanın Zəngəzurda neytral zonanın yaradılması təklifi o şərtlə müzakirə edilə bilər ki, bu barədə beynəlxlaq təcrübəyə əsaslanma olsun. ABŞ-ın Luiziana ştatı 19-cu əsrdə İspaniya ilə mübahisəli ərazi olaraq bir müddət neytral zona kimi qalıb. Heç bir dövlətin proteraktında olmayıb. Eləcə də İsrail və Misir, Səudiyyə Ərəbistanı və İraq, Hollandiya, Belçika və Almaniya arasında mübahisəli ərazilər mövcud olub. Neytral zona statusu müəyyənləşənə qədər ya tərəflərin birgə nəzarətində olmalı, ya da beynəlxalq sülhməramlılar dövrəyə girməlidir. İstənilən halda Zəngəzurda Azərbaycanın üstün hüquqlarının olması vacibdir ki, bölgədən keçən kommunikasiyaların təhlükəsizliyini təmin edə bilsin. Bu həm də Ermənistanın, Qərbin və Rusiyanın maraqlarına uyğundur”.

**İsmayıl Qocayev**

## ABŞ-ın Rusiyadakı səfirliyi ştatını 75 faiz ixtisar edəcək

**ABŞ-ın Rusiyadakı səfirliyi xarici ölkə vətəndaşlarının işə götürülməsi ilə bağlı qadağa səbəbindən konsulluğun ştatını 75 faiz ixtisar edəcək.**

Bu barədə məlumat diplomatik nümayəndəliyin saytında yerləşdirilib.

”Təəssüf edirik ki, Rusiya hökumətinin fəaliyyəti sayəsində konsulluğumuzun əməkdaşlarının sayını 75 faiz azaltmağa məcbur oluruq və ABŞ vətəndaşlarına mümkün qədər daha çox xidmət təklif etməyə çalışacağıq”, - deyə məlumatda bildirilir.

Mayın 12-dən etibarən, həmçinin konsulluq xidmətlərinin sayı da azaldılacaq. Əsasən də diplomatik səfərlər üçün nəzərdə tutulmayan vizalara baxılması dayandırılacaq.

Diplomatik nümayəndəlik personalın Moskvadan kənarda hərəkət imkanlarının məhdudluğu səbəbindən Rusiyadakı ABŞ vətəndaşlarına göstərilən təcili xidmətlərin gecikə biləcəyini də açıqlayıb. (azərtac)

Bundan əlavə, vizasının vaxtı keçmiş ABŞ vətəndaşlarına əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkədən deportasiya olunacağı iyunun 15-dək Rusiyanı tərk etmələri tövsiyə olunur.

## Azərbaycanın valyuta bazarında sabitlik qalır

### Dövlət Neft Fondu 140 milyon dollara qənaət edib




**Bu ilin əvvəlindən etibarən yalnız yanvarda xarici valyutada tələbin artması müşahidə olunub, ümumilikdə isə Azərbaycanın valyuta bazarında sabitlik qalır.**

Trend-in məlumatına görə, bunu Mərkəzi Bankın İdarə heyətinin sədri Elman Rüstəmov deyib.

Onun sözlərinə görə, artan tələb həm nağd, həm də nağdsız valyuta üçün müşahidə olunub: ”Növbəti aylarda balans bərpa olunub. Dövlət Neft Fondu 140 milyon dollara qənaət edib”.

*E.Rüstəmov vurğulayıb ki, hazırda valyuta bazarında kəsir müşahidə olunmur.*



## Daha bir gənc müəllim koronovirusdan dünyasını dəyişib

**Sumqayıt şəhəri İsmət Qayıbov adına 1 saylı orta məktəbin müəlliməsi Yeganə Cəbrayılova koronavirusdan vəfat edib.**

Bu barədə sosial şəbəkədə məlumat yayılıb.

Bildirilib ki, Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyət göstərən Yeganə Cəbrayılova aparılan müalicə tədbirlərinə baxmayaraq, dünyasını dəyişib.

# “Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması” tarixə qovuşdu

## Bundan sonra bütün dəstək Qarabağın dirçəlməsinə yönələcək





"Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi təşkilatın buraxılmasına qərar verib. Bununla bağlı ictimaiyyətə müraciət edən qurum 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağın işğaldan azad edildiyini, milyonlarla insanın 30 illik vətən həsrətinə son qoyulduğunu vurğulayıb. Qeyd olunub ki, bundan sonra həm Azərbaycan, həm də onun tərkib hissəsi olan Qarabağ yeni tarixi mərhələyə qədəm qoyub:

”Artıq ”Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi və onun statusu anlayışı yoxdur. Çoxmillətli və multikultural ölkəmizdə yaşayan bütün milli azlıqlar kimi ermənilər də Azərbaycanda fərdi vətəndaşlar olaraq sərbəst şəkildə yaşayacaqlar. Vətən müharibəsindən sonra yaranmış yeni reallıqda ”Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması” və ”Dağlıq Qarabağ bölgəsinin erməni icması” anlayışları öz aktuallığını və ictimai əhəmiyyətlərini itirdi. Bütün bunları nəzərə alaraq təşkilatın buraxılmasına qərar verdik”. Birliyin açıqlamasına görə, təşkilatın bundan sonrakı fəaliyyəti torpaqlarımıza böyük qayıdışın uğurla başa çatdırılmasına, Qarabağımızın dirçəldilməsinə yönələcək: ”Bu müqəddəs missiyanı dəstəkləmək üçün ”Qarabağa dönüş” adlı ictimai birliyin yaradılmasını bəyan edirik”.

**İcmanın ləğv olunması qərarını ”Şərq”ə dəyərləndirən millət vəkili Elman Məmmədov bildirib ki, Azərbaycanda ”Dağlıq Qarabağ” adında inzibati vahid yoxdur.** Deputatın sözlərinə görə, bunu Prezident İlham Əliyev də açıqca bəyan edib: ”Əslində bu adda inzibati vahid 1991-ci ilin noyabr 26-dan yoxdur. Həmin tarixdə Azərbaycan Ali Sovetinin sessiyasında Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv olunub. Bölgədə müstəqil rayonlar var. Şuşa, Xocalı, Xocavənd ayrı-ayrı rayonlardır. Amerika kəşf etmirik, burada söhbət hüquqdan gedir. Azərbaycan konstitusiyasına əsaslanıb deyirəm ki, ”Dağlıq Qarabağ” adlı bölgə yoxdur. Ən önəmli məsələ isə odur ki, azərbaycanlılar öz vətənlərində ”icma” ola bilməzlər. Bu yanaşma bünövrədən, kökündən yanlış idi. Azərbaycanda fərqli icmalar var. Milli-etnik azlıqların icmaları - rus, ukrayna, yəhudi və s. millətlərin icmaları mövcuddur. Eynilə erməni icması da ola bilər. Qarabağda yaşayan ermənilərin Azərbaycan qanunlarına uymaq və vətəndaşlıq qəbul etmək şərtiylə icma qurmaları mümkündür. Ancaq yerli əhalinin Azərbaycanda icma şəklində fəaliyyəti absurddur. ”Fransada fransız, Almaniyada alman icması var” ifadəsi məntiqli səslənirmi? Daim bu fikirdə olmuşam və mövqeyimi hər yerdə bildirmişəm. İcma çoxdan ləğv olunmalıydı. Mən çoxdan icmanın işlərində iştirak etmirdim. Çünki icma hüquqi əsası olmayan bir qurum idi”.

**İsmayıl Qocayev**

# XTQ-nin yaradılmasından 22 il ötür

## Aprel döyüşləri xüsusi təyinatlılarımızı dünyaya tanıtdı



Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) yaranma günü qeyd olundu. XTQ-nin yaradılmasından düz 22 il ötür.

Qüvvələrin formalaşmasında birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər. XTQ-nin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri də xüsusi rol oynayıb.

Azərbaycan XTQ İkinci Qarabağ müharibəsində şanlı zəfəri qazanmağımız üçün ən böyük töhfəni verdi. Məhz bu qüvvələrimizdən gözləntilər kifayət qədər böyükdür.

**Azərbaycan XTQ-nin hansı səviyyədə olduğuna dair "Şərq"ə danışan Qarabağ qazisi, ehtiyatda olan gizir Natiq Mehdiyev XTQ-nin yaranmasını mütərəqqi hal hesab edir:** "XTQ 1999-cu ildə Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Ulu öndər XTQ-nin komandanı kimi cənab Hikmət Mirzəyevi təyin etdi. O, XTQ yarandığı gündən bu günə qədər XTQ komandanı olub. Hərbi formanı geyinən bütün oğullar başımızın tacıdır, hamısı ilə fəxr edirik. Lakin



XTQ-də olanların hər biri seçilmiş şəxslərdir. Hansı ki, yüzlərlə, minlərlə adam kursa yazılır və onların içində maksimum 10 nəfəri XTQ üzvü olur. Onlar bizim qürur mənbəyimizdir. Şuşanın alınması zamanı bütün dünya mediası XTQ-lərimiz barədə yazdı ki, erməni əsgərlərinin meyitləri boğulub və bıçaqla öldürülüb. Bütün dünya ölkələri gördü ki, Azərbaycanın necə XTQ-ləri var".

N.Mehdiyev vurğulayıb ki, XTQ-lərimiz 1999-cu ildə yaransa da, 2016-cı ilə qədər maksimum 100 min əhalimizin onlar barədə məlumatı olub: "Orada xidmət edənlərin yaxın ətrafı bilib ki, Azərbaycanda belə qüvvələr var. Aprel döyüşləri XTQ-lərimizi bütün dünyaya tanıtdı. XTQ-lərimizin ilk şəhidi 2014-cü ildə kapitan Məmmədov Fikrət olub. Döyüş tapşırığını yerinə yetirib qayıdanda onu arxadan vurmuşdular.

Aprel döyüşlərində bütün ermənilər bilirdilər ki, onların üzərinə kimlər gələcək. 2016-cı ilə qədər Azərbaycan xalqı XTQ-ləri tanımasa da, bütün Ermənistan ordusu və xalqı tanıyırdı. Sadəcə, bunu ictimaiyyətə çatdırmırdılar. İndiyə qədər XTQ tərkibində nələr etdiyimizi qismən də olsa, danışırıq".

**Qarabağ qazisi qeyd edib ki, XTQ-lərimiz Ermənistan ordusunun birbaşa onurğa sütununu qırdı:** "Zəfər döyüşü və Şuşanın alınması bunun sübutu oldu. Kimsə XTQ-lərin tərkibindəki müxtəlif əziyyətlər barədə danışırdı. Təbii ki, bunların hər biri yaxşılığımız, müvafiq kursu və missiyanı keçməyimiz üçündür. Həmin əziyyətin bəhrəsini Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində gördük. Təlimdə tər tökən, döyüşdə qan tökər".

**Yeganə Bayramova**

# "Hər kəs öz sahəsində əsgər olmalıdır"

## Mübariz Əsgərov Prezidentin etimadını doğruldacağına söz verib



**"...Gözlənilməz xəbər... Böyük etimad... Böyük məsuliyyət...".**

Bu sözləri feysbuk profilində 6 il müddətinə Milli Televiziya və Radio Şurasına üzv təyin edilmiş tanınmış telejurnalist Mübariz Əsgərov yazıb.

O bildirib ki, Qarabağ bölgəsində sənədli filmin çəkilişləri vaxtı cənab Prezidentin sərəncamı ilə Milli Televiziya və Radio Şurasına üzv təyin olunmağı haqqında şad xəbər alıb: "Uzun illər teleməkanda çalışmış, vuruşmuş Mübariz Əsgər kimi cənab Prezidentə, Ali Baş Komandana səmimi təşəkkür edirəm. Onun etimadını doğrultmaq üçün bütün yaradıcı potensialımı, təcrübəmi səfərbər edəcəyimə söz verirəm. Müharibədə qazanılan Zəfərin arxa cəbhədə də davamlı olması üçün hər bir vətəndaş öz sahəsində əsgər olmalıdır. Televiziya əslində ön cəbhədir. Həmişə göz önündədir. Televiziya işçisi adi əsgər yox, Xüsusi Təyinatlı Əsgər olmalıdır!".

**İsmayıl**

# Taksilər də avtobus zolaqlarından istifadə edə biləcək



**Gələcəkdə taksilər də avtobus zolaqlarında istifadə edə biləcək.**

Trend-in məlumatına görə, bunu Bakı Nəqliyyat Agentliyinin (BNA) Yol hərəkətinin təşkili şöbəsinin müdiri Tərlan Səfərov deyib. Onun sözlərinə görə, hazırda mövcud qanunvericiliyə əsasən, avtobus zolaqlarından operativ nəqliyyat vasitələri istifadə edə bilər:

"Bu, bir tərəfdən avtobus zolaqlarının üstünlüyündən xəbər verir. Belə ki, yanğınsöndürən, təcili yardım, yaxud Dövlət Yol Polisinin İdarəsinin əməkdaşları bu xətlərdən istifadə edərək hadisə yerinə zamanında çata bilirlər.

Gələcək perspektivlərdə taksi xidməti göstərən minik vasitələrinin də avtobus zolaqlarına daxil olması müzakirə olunur ki, bu istiqamətdə qanunvericilikdə dəyişiklik edilsin".

# İtkin erməni hərbçilərin sayı 1 552 nəfərə çatdı

**Bu gün Ermənistan ordusunun ikinci Qarabağ müharibəsində məhv edilmiş daha bir hərbi qulluqçusunun meyiti Azərbaycan tərəfindən bu ölkəyə təhvil verilib.**

"Report"un məlumatına görə, bu barədə Ermənistan mətbuatı məlumat yayıb.

Qeyd edilir ki, meyitin şəxsiyyətinin müəyyənləşdirilməsi üçün məhkəmə-tibbi ekspertizası təyin ediləcək. Bununla da 2020-ci ilin 13 noyabrından Qarabağda aşkarlanan itkin erməni hərbi qulluqçuların sayı 1 552 nəfərə çatıb.

# Paşinyanın şansı daha çoxdur

## Baş nazirin populizmi, siyasi manevrləri onun hər vəziyyətdən çıxa bildiyini göstərir



**Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan "ArmNews" telekanalına müsahibə verib. O, müsahibəsi zamanı mövcud Ermənistan hakimiyyətini təhqir edib: "Ermənistanın indiki hakimiyyətindəkilər çoban iti deyil, çaqqaldırlar".**

Nikol Paşinyanın komandasını çaqqallara bənzədən Sarkisyan sözügedən müsahibəsində 2018-ci ilin aprel hadisələrindən danışıb, eyni zamanda istefası və digər mövzular barədə sualları cavablandırıb. Bu, onu göstərir ki, müxalifətlə-iqtidar arasında qarşıdurma səngimir. Deməli, iyun ayında keçiriləcək seçkilərin gərgin şəraitdə baş tutacağını indidən təxmin etmək olar.

**Rusiyada yaşayan soydaşımız, jurnalist, politoloq Anar Həsənov Ermənistandakı vəziyyət barədə "Şərq"ə danışdı:** "Paşinyanın siyasi taleyinin sual altında olması daxildəki siyasi rəqabətin göstəricisidir. Müxalifətin əlində güclü informasiya resursları var. Amma bu, hələ etirazçıların təzyiqdən xilas olması demək deyil. Çoxları növbədənkənar seçkilərdə Paşinyanın uduzacağını düşünür. Lakin hazırkı baş nazir kimi, əvvəlki dövlət başçıları Koçaryan və Sarkisyan da xalqı qıcıqlandırırlar. Paşinyanın populizmi, siyasi manevrləri onun hər vəziyyətdən çıxa bildiyini göstərir. Müharibəni uduzan siyasi liderin mitinq təşkil etməsi və mitinqə müxalifətdən daha çox tərəfdar çıxarması bunu bir daha sübut edir".

**A.Həsənov qarşıdakı seçkilərdə mövcud hakimiyyətin şanslarını belə qiymətləndirir:** "Yekdil fikir söyləmək çətindir. Lakin fikrimcə, Paşinyanın şansları daha çoxdur. Birincisi, parlamentdə çoxluq onun tərəfindədir. İkincisi, xalq arasında imici daha çoxdur. Və üçüncüsü, Rusiya Ermənistan daxilindəki bütün siyasi cəbhələrə eyni münasibət göstərir. Paşinyan istefa verəcəyi barədə açıqlamasından sonra Rusiya dövlət başçısı Vladimir Putinin onu Kremldə qəbul etməsi, üstəgəl, Rusiya baş nazirinin İrəvana səfəri dediyimiz fikrin təsdiqidir.

Daxildə müxalifətin aktivliyinin artması isə Kremlin etirazçıları dəstəkləməsi kimi başa düşülməməlidir. Həmçinin Ara Abramyanın seçkilərdə iştirak etməsi niyyəti də Rusiyanın onun xeyrinə addım atması və ya atacağı kimi anlaşılmamalıdır. Şuşanın, Laçının işğal günlərinin yaxınlaşmasından müxalifət öz xeyrinə yararlanacaq. Əlbəttə, bu, "Qarabağ klanı"na olan münasibətə müsbət təsir göstərəcək. Amma bütün hallarda Paşinyanın şansı daha çoxdur".

**Kənan**

# Bəd xəbərlərin yarışı gedir



## "Xəbər saytları insan taleləri üzərindən vicdansızcasına oynayırlar"

Gənclər və İdman naziri Azad Rəhimovun səhhəti ilə bağlı günlərdir müxtəlif xəbərlər dolaşır. Nazirin gah ABŞ-da müalicə aldığı, gah da Bakıya gətirilərək özəl xəstəxanaların birində süni nəfəs aparatına qoşulduğu, hətta həyatda olmadığı, lakin bu barədə məlumatların bilərəkdən gizlədildiyinə dair şayiələr sosial mediada yer alır. Xəbər saytları yenə də "İP" ovundadır. Xoş xəbərlərdən daha çox bəd xəbərlərə, faciələrə "sığınan" onlayn media naziri artıq neçənci dəfədir ki, "öldürüb-dirildir".

Eyni hazırda Xalq artisti, koronavirusdan əziyyət çəkən sevimli sənətkar Arif Quliyevlə bağlı da yaşanır. Koronavirusdan bu günlərdə dünyasını dəyişmiş Əməkdar artist, sevilən ifaçı Baloğlan Əşrəfovun ölüm xəbəri ilə yanaşı Arif Qulieyin də həyatla artıq vidaşladığı xəbərləri yayıldı. Doğmalarının təpkisi sonrası xəbərlər səngidi. Yeri gəlmişkən, GİN-nin mətbuat katibi Səmayə Məmmədova "Facebook" səhifəsində nazir Azad Rəhimovun səhhəti ilə bağlı məlumat paylaşdı. Mətbuat katibi xəbər verdi ki, nazirin Bakıya gətirilməsi haqda informasiya həqiqətəuyğun deyil, Azad Rəhmov ABŞ-dadır, vəziyyəti ağır olaraq qalır". Ümumiyyətlə, ölkənin bir nazirinin səhhəti ilə bağlı xəbər niyə gizlədilməli və ya niyə verilməməlidir? Burada hansı məqsəd güdülə bilər?

**Məsələ ilə bağlı fikirlərini "Şərq"ə bildirən Əməkdar jurnalist, Mətbuat Şurası İdarə Heyətinin üzvü Azər Həsrət qeyd etdi ki, jurnalistikanın, xəbərçiliyin dedi-qodu, şayiə üzərindən aparılması ürəkaçan deyil:**

- Əvvəla, mən Azad müəllimə şəfa diləyirəm. Arzu edək ki, sağalsın, vəzifəsini davam etdirsin. İkincisi, nazirin uzun müddət xəstə yatması əlavə suallar yaratdı. Amma bu, heç bir jurnalistə, heç bir xəbər saytına, portala əsas vermir ki, bir insan haqqında, fərqi yoxdur, bu insan nazirdir, dövlət rəsmisidir, yaxud sıravi vətəndaş, barəsində əsassız, təsdiqlənməmiş informasiya yaysın. Bu, jurnalistika qanunlarına da ziddir, insanlığa da. Mən dostlarımızı, jurnalist həmkarlarımı bu cür xəbərçilikdən əl çəkməyə çağırıram. Mən də çox şey bilirəm. Kimlərdəsə olmayan informasiya bəzən məndə olur. Lakin mənim bu cür informasiyaları paylaşdığımı, ictimailəşdirdiyimi kimsə görməyib. Etməmişəm bunu. Bəli, Azad Rəhimov nazirdir, dövlət siyasətinin yürüdülməsində öz yeri, rolu olan vəzifəli şəxsdir. Doğrudur, dövlət təhlükəsizliyi ilə bağlı, əlahiddə qurum rəhbəri deyil. Bəzən yüksək çinli, dövlətin özəyini təşkil edən vəzifəli şəxslər barəsində informasiyalar dövlət siyasətinə uyğun olaraq yayılır. Azad Rəhimov nazirdir. Və onun səhhəti barədə informasiya nazirlik tərəfindən mütəmadi verilməlidir ki, öz vəzifəsini icra edib-etmədiyi bilinsin. Amma bu da var ki, nazirliyin mətbuat katibi Səmayə xanım əlçatandır, media ilə nümunəvi münasibətləri var. Və məhz Səmayə Məmmədova da nazirin səhhəti ilə bağlı lazım olan informasiyanı verdi. Tutalım, nazirin başına bir iş gəlsə, niyə bunu gizlətməlidirlər?! Mən burda heç bir məntiq görmürəm.

*A.Həsrət təəssüflə qeyd etdi ki, bəzən xəbər saytları insan taleləri ilə oynayır:*

- Çox təəssüf ki, bəzi adamlar sayta oxucu cəlb etmək üçün insan taleləri üzərindən vicdansızcasına oynayırlar. 44 günlük Vətən müharibəsində də biz bunu müşahidə etdik. Hətta şəhidlərin sayı ilə bağlı şayiə xarakterli məlumatlar verilirdi, "say bu qədər deyil" və sair... Elə bir dövrdə yaşayırıq ki, nəyisə gizli saxlamaq artıq mümkün deyil. İctimaiyyətə çatdırılmalı olan informasiyalar gec-tez çatır. Sadəcə, beziləri boş, mənasız söz-söhbətlərlə sensasiya yaratmağa çalışır.

**Məlahət Rzayeva**



## Hektarlarla ərazini zəbt edib

### Şəmkirin həbs edilən icra başçısının Maral təsərrüfatı aşkarlandı

**Şəmkir rayon İcra Hakimiyyətinin həbs edilən sabiq icra başçısı Alimpaşa Məmmədovun maral ferması aşkarlanıb.**

Trend-in məlumatına görə, həbs edilən icra baqşçısı Şəmkir rayonunda hektarlarla ərazini zəbt edərək orada şəxsi maral təsərrüfatı yaradıb.

Məlumata görə, əvvəllər təsərrüfatdakı maralların sayı çox olsa da, hazırda bu fermada olan maralların sayı 30-dur çoxdur. Əvvəllər Şəmkirin Kür qəsəbəsində Camış ferması kimi tanınan ərazi A. Məmmədov icra başçısı gələndən sonra zəbt edilib. Həmin fermada icra başçısı maral təsərrüfatı yaradıb. Ərazidə marallar üçün müxtəlif uzunluqda iki tövlə də tikilib.

## 27 nəfər vəfat edib

### 1 196 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 196 yeni yoluxma faktı qeydə alınıb, 2 162 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 27 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 319 109 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 289 460 nəfər müalicə olunaraq sağalıb, 4 517 nəfər vəfat edib, aktiv xəstə sayı 25 132 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 319, ötən müddət ərzində isə ümumilikdə 3 241 186 test aparılıb.*

# Mühüm bir mərhələ başlayır



## Vətəndaş cəmiyyətinin inkişafına yeni imkanlar açılır

Prezident İlham Əliyevin 19 aprel 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ləğv edilib. Şuranın yerinə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılıb. Ölkə başçısının yeni fərmanı ilə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının tərkibi təsdiq edilib.

Dəyişikliyin QHT sektoruna nə kimi təsirləri olacaq?

**Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Şərq"ə bildirib ki, Prezidentin yeni fərmanı QHT-lərin inkişafında mühüm rol oynayacaq:**

"Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılıb. Bu agentliyin yaradılması QHT-lərin, vətəndaş cəmiyyətinin, ölkə ictimaiyyətinin həyatında çox mühüm olan yeni səhifə yaradır. Düşünürəm ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının indiyə qədər əldə etdiyi nailiyyətlər, qazandığı təcrübə və formalaşdırdığı ictimai düşüncə agentliyin timsalında bundan artıq səviyyədə yeni imkanlar qazandı. O təcrübəyə və bazaya əsaslanaraq vətəndaş cəmiyyətinin bundan sonrakı inkişafı ilə əlaqədar çox mühüm bir mərhələ yarandı. Bir müddət gözləməliyik ki, agentlik, onun müşahidə şurası, əsasnaməsi formalaşsın. Bu, bir qədər səbr tələb edir".

**R.Zeyninin sözlərinə görə, vətəndaş cəmiyyətinin bundan sonrakı inkişafı ilə əlaqədar yeni imkanlar açılır:**

"Nazirlər Kabineti tərəfindən birbaşa QHT-lərin layihələri, qrant layihələri ilə bağlı standartların müəyyən edilməsi həm agentlik, həm də vətəndaş cəmiyyəti tərəfindən dəyərləndirilməlidir. Bunların hamısından dövlətimizin, cəmiyyətimizin inkişafı üçün səmərəli istifadə olunmalıdır. O cümlədən, ictimai nəzarətin, şəffaflığın artırılması baxımından bu imkanlardan da istifadə etmək lazımdır.

Təbii ki, QHT-lər və vətəndaş cəmiyyəti çoxdan bu agentliyin yaradılması ilə bağlı Prezident fərmanını gözləyirdi ki, yeni imkanları dəyərləndirsin və bundan sonra əməkdaşlığı daha da gücləndirsin.

Həm QHT-ləri, həm də vətəndaş cəmiyyətini yeni agentliyin yaradılması münasibətilə təbrik edirəm. Ölkə Prezidenti tərəfindən bu agentliyin idarə olunması üçün təyin olunacaq müşahidə şurasının üzvlərinə də uğurlar arzulayıram.

İnanıram ki, agentlik, onun müşahidə şurası və rəhbərliyi gələcəkdə ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafına yüksək səviyyədə dəstək verəcək və vətəndaş cəmiyyəti də bu imkanlardan bəhrələnəcək".

**Yeganə Bayramova**

# Xankəndidə terrorçular var

## Onlar sülhməramlıların nəzarəti altında istədikləri kimi gəzirlər



*“Lavrovun səfəri zamanı ermənilərin ərazidən çıxarılması da müzakirə olunmalıdır”*

**Ermənistan ordusunun Xankəndidə yerləşən terrorçularının Azərbaycanı tərk etməsini göstərən daha bir video yayılıb. Sosial şəbəkələrdə yayılan videoda ermənilərin ağır texnikanı yük maşınları ilə daşıdığı əks olunub.**

Erməni terrorçularının Xankəndidən çıxmasını əks etdirən ilk video ötən gün yayılıb. Sözügedən videoda hərbi avtomobil karvanı və hərbçilərin Azərbaycan şəhərini Laçın dəhlizi ilə tərk etdiyi əksini tapmışdı.

**Hərbi ekspert Ədalət Verdiyev sözügedən görüntü barədə ”Şərq”ə danışdı:** ”Həmin videonu mən də izləmişəm. Mühitdən, təbiətin rəngindən görünür ki, yeni çəkilib, köhnə kadrlar deyil. Amma ermənilərin ərazidən tam çıxarılmasından əmin deyiləm. Mən oralarda olmuşam. Xankəndidə hələ də terrorçuların olduğunu bilirəm. Əslində bizdən gizlənmirlər. Sülhməramlıların nəzarəti altında istədikləri kimi gəzirlər”.

**Ə.Verdiyevin fikrincə, məsələdə qaranlıq məqamlar heç də az deyil:** ”Ermənilərin Xankəndini indi boşaltması özü də qəbahətdir. Bu proses aylar əvvəl, noyabrın 10-da, yəni sülhməramlılar bölgəyə girdiyi gündən olmalıdır. Niyə indi çıxırlar?! Dəfələrlə demişəm ki, sülhməramlılar funksiyalarını Ağdam, Kəlbəcər və Laçının boşaldılması zamanı daha doğru-dürüst yerinə yetirirdlər. Sonradan isə biz eyni halı müşahidə edə bilmədik. Fikrimcə, Rusiya Xarici işlər naziri Sergey Lavrovun ölkəmizə səfəri zamanı bir çox məsələlər, o cümlədən ”İsgəndər” raketi, sülhməramlıların fəaliyyəti kimi ermənilərin ərazidən çıxarılması da müzakirə olunmalıdır”.

**Kənan**

# DİN aydınlıq gətirdi

## Şəhid Xudayar Yusifzadə barədə status yazan şəxsi döyənlər həbs edilməyib



**Şəhid Xudayar Yusifzadə barədə sosial şəbəkələrdə status paylaşdığına görə Fuad Rəsulzadənin döyülməsi ilə bağlı hələlik həbs olunan yoxdur. Bunu Trend-ə açıqlamasında Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov deyib.**

Onun sözlərinə görə, qanunun tələbinə uğun olaraq faktla bağlı cinayət işi başlanıb və istintaq aparılır: ”Xəbər verildiyi kimi artıq qanunun tələbinə uğun olaraq həmin fakt üzrə cinayət işi başlanılıb və istintaq aparılır. Tərəflər dindirilib, ifadələri alınıb, lakin hələlik həbs olunan yoxdur. İstintaq prosesində tərəflər barışmaq niyyətində olduqlarını da bildiriblər. Barışıq barədə rəsmi müraciət edərlərsə, prossesual qanunvericiliyə uyğun olaraq nəzərə alınacaqdır”.

*Qeyd edək ki, Tvitterdə ”Əhməd” adlı hesabdan ”Xudayar çoxdandı təzə mahnı buraxmır” deyə ironik paylaşım edilib. Daha sonra Fuad Rəsulzadə həmin sözləri özünün dediyini açıqlayıb.*

# Bakının gizlinləri üzə çıxır

## Tarixi binanın üzərindəki mansard sökülür

Bakının Nəsimi rayonu, "28 May" küçəsindəki tarixi binanın üzərində əlavə tikinti işləri aparıldığını əks etdirən fotolar sosial şəbəkələrdə paylaşılıb. Fotolar memar Elçin Əliyev tərəfindən yayılıb. Memar durumla bağlı qeyd edib ki, 1908-ci ildə tikilmiş tarixi bina Azərbaycan ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxildir.









Lakin kimlərsə binanın konstruksiyasına əlavələr edib, həm də qanunsuz. Binanın damında mansard inşa etməklə mərtəbələrin sayını süni şəkildə artırıblar. Bu isə həm tikinti-inşaat qanunlarına ziddir, təhlükəsizliyə təhdiddir, həm mədəni irsin məhv edilməsi, tarixi binaya vurulan zərbədir. Məsələ ilə bağlı ”Qafqaz-info” saytı Mədəniyyət Nazirliyinə sorğu ünvanlayıb. Cavab olaraq sayta bildirilib ki, bununla əlaqədar Mədəni İrsin Qorunması Dövlət Xidmətinə artıq məlumat verilib.

İstifadədə olan yaşayış binalarının mərtəbələrinin sayının sonradan artırılması təcrübəsi paytaxtda geniş yayılıb.

Paytaxtın ”28 May” küçəsində tarixi binayla bağlı yaşanan hal ilk deyil. Sonuncu olacaqmı, müsbət cavab vermək çətindir. Çünki indiyədək oxşar hallar baş verib, ictimailəşib, media işıqlandırıb, lakin heç bir hüquqi ölçü götürülməyib. Bəlkə hansısa qurum qanunsuzluğa yol verənin başının üstünü kəsdirib, ”haqq-hesab” çəkib, onu deyə bilmərik. Ortada real nəticə olmadığından aidiyyətli qurumların susqun qaldığı daha çox inandırıcıdır. Xatırladaq ki, bir müddət öncə yenə də sosial şəbəkədə feysbuk istifadəçisi Məhəmmədəli Qəribli qanunsuz tikili ilə bağlı foto paylaşmışdı və belə bir məzmunda paylaşım etmişdi: ”Artıq işbazlar yeni metoda əl atıblar. Əlavə xərc çəkib yerdən bina tikmək onlara sərf etmir. ”Günəşli” qəsəbəsində tikilən bu hazır binanın üstündən iki mərtəbə artırmaqla yaxşı pul qazanmaq eşqinə düşüblər. Bundan böyük qanunsuzluq olarmı?!”.

Tarixi binaların simasının, quruluşunun dəyişdirilməsi, mərtəbələrin sayının artırılması, eyvanlar, mansardlar əlavə edilməsi, tikintisinə icazə alınan binanın mərtəbələrinin sayının sonradan artırılması paytaxtda adi hal alıb.

**Müstəqil Memarlar Assosiasiyasının prezidenti Zemfira Budaqova sözügedən məsələ ilə bağlı ”Şərq”ə açıqlamasında tarixi binanın damında mansard tikintisinə konkret şəxs və qurum tərəfindən icazə verildiyini bildirdi:**

### Zemfira Budaqova: *“Memarlıq və Şəhərsalma Dövlət Komitəsində əsl memarlar varsa, belə biabırçılığa və qanunsuzluğa son qoymalıdırlar”*

### Hay-küy qalxan kimi hər kəs yaxasını kənara çəkir ki, “xəbərim olmayıb”

- Şəhərdə icazəsiz nəsə tikmək mümkün deyil. Kənar yerlərdə belə vətəndaşlar fərdi ev tikintisi üçün bələdiyyədən başlamış icra hakimiyyətinədək instansiyaları bir-bir - pul müqabilində, rüşvətlə keçirlər. Belə olduğu halda şəhərin mərkəzində tarixi binanın damında mansard tikintisini rəsmi orqanların ”görməməsi” absurddur. Kimsə buna icazə verib. Söhbət qanuni icazədən getmir, kabinetdə, qeyri-qanuni, iki tərəf arasındakı razılşmaya görə icazə verilib. Pul müqabilində nə istəsəniz etmək olar. ”Filan qədər ver, get, nə istəyirsən tik”, vəziyyət budur. Məsələ ictimailəşəndə, hay-küy qalxanda isə hərəsi yaxasını bir kənara çəkir ki, ”xəbərim olmayıb”, ”mənim vaxtımda verilməyib sərəncam”. Bu, məsuliyyətdən yayınmaqdır. Bunu da çox gözəl bacarırlar. Paytaxtdakı qədim, tarixi binaların qədrini bilmirlər. ”Azneft” meydanından Bayıl istiqamətinə gedən yolda ”İnturist” mehmanxanası vardı. Bu binanın tikintisi üçün Bakıya İtaliyadan memar dəvət edilmişdi. Binanın daxilində necə gözəl naxışlar, ornamentlər vardı. Həmin naxışları, bəzəkləri indi heç yerdə görə bilməzsiniz. Amma o cür gözəl binanı sökdülər. Yerində guya ki, ona bənzərini tikəcəkdilər. Tikə bilmədilər. Yeni bina heç vaxt əvvəlkini əvəz edə bilməz. Qədim binaları ”təmizləmək” adı altında yonurlar, daşların naxışı, bütün cizgilər itir. Binada tarixilikdən əsər-əlamət qalmır.

**Z.Budaqova bir əsrdən artıq yaşı olan tarixi binanın üzərində mansard tikilməsinin təhlükəsizlik baxımından da yolverilməz olduğunu bildirdi:**

- Qədim binaların fundamenti möhkəmdir, divarları qalındır. Lakin hər bir bina müəyyən ağırlığa hesablanaraq tikilir. 3 mərtəbə binanın daşıya biləcəyi ağırlıqla, 5-6, 16-20 mərtəbəli binanın daşıya biləcəyi ağırlıq fərqlidir. Əgər 5 mərtəbəli binanın üstündə sonradan daha bir mərtəbə ucaldılırsa, binanın ağırlıq saxlama gücünə mənfi təsir edir. Belə əlavə tikililər binaların özülünü tərpədir, dirəkləri əlavə ağırlığa salır. Bu da həm bina üçün, həm də orada yaşayan sakinlərin həyatı üçün də təhlükəlidir. Buna imkan yaradanlar, gizli-gizli icazə alanlar və bu icazəni verənlər cəzalanmalıdır.

**Z.Budaqova Memarlıq və Şəhərsalma Dövlət Komitəsinə yeni təyinatı xatırlatdı:**

- Cənab Prezident Memarlıq və Şəhərsalma Dövlət Komitəsinin yeni təyin edilmiş sədrinə hansı tapşırıqları verdi, hamımız gördük. Prezident tarixi binaların, maddi irsimizin qorunmasının vacibliyindən danışmışdı. Prezident bu məsələdə sərt mövqe ortaya qoyub. İcra strukturları, məmurlar da bundan nəticə çıxarmalıdır. Memarlıq və Şəhərsalma Dövlət Komitəsi ara məsafəsi cəmi 20 metr olan iki 16 mərtəbəli binanın qarşı-qarşıya tikintisinə necə icazə verib? Şəhərdə belə tikililər ”n” qədərdi. İnşaat qanunlarına görə, məsələn, 16 mərtəbəli bina ilə digər 16 mərtrəbəli bina arasında əslində iki 16 mərtəbəli binanın hündürlüyü qədər məsafə olmalıdır. Yaxşı, bunu etmirlər etməsinlər, heç olmasa, bir 16 mərtəbənin hündürlüyü qədər məsafə saxlasınlar. Bu da yoxdur. Bakı kimi rütubətli şəhərdə bir-birinıə bitişik, pəncərələri gün işığı görməyən binalar tikmək fəlakətdir. Bu binalarda yaşayan, o mənzillərdə böyüyən uşaqların sağlamlığı sual altındadır. Komitədə əsl memarlar varsa, belə biabırçılığa və qanunsuzluğa son qoymalıdırlar.

Son anda aldığımız məlumata görə, Bakıda tarixi binanın üzərində olan əlavə tikili Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən sökülür.

Trend-in məlumatına görə, Nəsimi rayonu, 28 may küçəsindəki tarixi binanın üzərində olan əlavə tikinti sökülür.

*Sözügedən bina 1908-ci ildə inşa edilib. Bina Azərbaycan ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxildir.*

**Məlahət Rzayeva**



44 gün davam edən Vətən müharibəsi tarixi Qələbəmizlə başa çatdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Tarix yazan Ordumuzun, qəhrəman əsgər və zabitlərimizin mübarizə əzmini, əsl döyüş ruhunu bütün dünya gördü.

# "Müharibə insanın həyata baxışını dəyişir"

## Vətən uğrunda savaşan və üç medalla təltif olunan zabit işsizdir

Savaşın qəhrəmanlarından biri də ehtiyatda olan baş leytenant Elvin Rzayevdir. Elvin bir neçə il əvvəl ordudan ehtiyata buraxılıb, Vətən müharibəsi başlayan kimi döyüşə səfərbər olunub, cəbhəyə leytenant kimi yollanan müsahibimiz hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ona baş leytenant hərbi rütbəsi verilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

**- Elvin bəy, zabit kimi Vətən müharibəsinə çağırıldığın gün yəqin ki, yadında qalıb...**

- Əlbəttə. Oktyabrın 22-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayonumuz üzrə idarəsindən çağırdılar. İdarəyə gedəndə bildirdilər ki, artıq ehtiyatda olan zabitlərə ehtiyac var. Bizi avtobuslarla N saylı hərbi hissəyə təlimə apardılar, bir neçə gün sonra isə artıq döyüşlərə qatılmaq üçün müəyyən ərazilərə təyin etdilər

**- Uşaqlıqdan maraqla müharibə filmlərini, döyüş səhnələrini izləmişik. Həyat elə gətirdi ki, yaşıdlarımız savaşda ən çox sevdiyimiz film qəhrəmanları oldular. Əsl döyüşü filmlərdə deyil, sizin gözünüzlə görmək istərdik. Necə xarakterizə edərdiniz?**

- Düz deyirsiz, filmlərdə döyüş səhnələri maraqlı gəlir, amma realda savaş filmdən tamam fərqlənir. Müharibənin öz qaydası var - ya ölürsən, ya da sağ qalırsan. Savaş çox dəhşətli və amansızdır. Hər an insan öldürə bilərsən və yaxud bir dəqiqə əvvəl çiyin-çiyinə dayandığın insanı itirə bilərsən. Səninlə bir səngər bölüşən dostun şəhid olur, bəzən heç tikəsi də ələ gəlmir...

Bir hadisəni heç zaman unutmayacam, döyüşə qatılan ilk gün yol gedərkən hərbi avtomobilimizi ermənilər raket atəşinə tutdu. Mərminin biri isə düz gəlib düşdü bizim avtomobilin yanına, yeni filmdə gördüyüm epizodu həyatda yaşadım və bir daha əmin oldum ki, real müharibədə ölüm gözlə qaş arasındadır. Döyüşdə həm özünü, həm də zabit kimi sənə təhkim olunmuş şəxsi heyəti qorumalısan. Həm də ətrafını, ələlxüsus sən əgər zabitsənsə, ətrafını, sənin tabeliyində olan bütün şəxsi heyəti qorumalısan. Nahaq yerə demirlər ki, bir zabit bir bölük deməkdir.

**- Bəzən deyirlər ki, hərbi xidmət, müharibə insanı bərkidir, yetişdirir...**

- Mən bərkitmək, yetişdirmək deməzdim, müharibə insanın həyata baxışını dəyişir. Döyüşə qatılan insan həyatın qədrini bilir. Hər şeyin qədrini, hətta aldığın hər nəfəsin, bir damcı içdiyin suyun belə qədrini bilirsən.

**- Sosial şəbəkələrdə müzakirə olunan 44 günlük müharibə aysberqin görünən tərəfidir yəni...**

- Təbii. Elə məsələlər var ki, onu bu gün tam açıqlamağım düzgün olmazdı, amma onu deyim ki, görünməyən tərəflər görünən tərəfdən daha dəhşətlidi. İkinci məsələ isə çöldə bizim bəzən avara kimi gördüyümüz insanlar döyüşdə həqiqətən böyük şücaət göstərdi. Bəzən baxırdın ki, gənc bir əsgər düşmənə elə zərbə vurur ki, onu bəlkə illərin döyüşçüsü vura bilməz.

**- Müharibədən əvvəl bəzən gənclərimizi qınayır, onların guya Vətən, Qarabağ barədə düşünmədiklərini deyirdilər. Lakin məhz bu gənc nəsil Vətəni erməni işğalından azad etdi...**

- Bizim bir məqsədimiz var idi - torpaqlarımızı vəhşi ermənidən xilas etmək! Ya şəhid, ya qazi olsaq da bu işi yerinə yetirmək. Əsgər və zabitlərimiz savaşa elə qatılmışdı ki, düşünürdük ki, lap Yerevana qədər irəliləyəcəyik. Amma bu hərbi işdir, əmrə tabe olmalısan. Mənə silah və daraq sayına güllə verəndə bir güllə isə əlavə aldım ki, əgər əsir düşsəm son güllənlə özümü öldürüm ki, erməniyə əsir düşməyim. Şəhidlik isə ən ali bir məqamdır, kiminə qismət olur, kiminə isə yox. Hamımızın içində şəhidlik istəyi var idi. Bizim isə bəxtimizə yaşamaq düşdü. Allah şəhid olan qardaşlarımıza rəhmət eləsin.

**- Bizdən əvvəlki nəsil torpaqlarımızın necə işğal edildiyini, bizim nəsil isə necə işğaldan azad etdiklərini danışacaqlar. Bəs sizin bu 44 günlük tarixi qələbə haqqında danışacaqlarınız nələr olacaq?**

- Danışılacaq çox şeylər var. Ürəkdən və qürurla deyə biləcəm ki, qorxmadan gedib iştirak etdim. Döyüşüb qələbəni qazandıq. Və ən əsası Qarabağ problemini bizdən sonra gələcək nəsillərə saxlamadıq.



**- Döyüşlərin həyatınızdakı rolu nədən ibarət oldu?**

- Savaşdan qalib zabit kimi döndüm və bir daha əmin oldum ki, torpağımı çox sevirəm. Hətta düşündüyümdən də çox sevirəm.

**- İllərlə həsrətində olduğumuz o torpaqlara ilk ayaq basanda hansı hisslər keçirdin?**

- Çox qəribə, qarma-qarışıq hisslərdi və düzünü deyim ki, nə vaxtsa döyüşlərdə iştirak edib görmədiyim, amma adını eşidib həsrətdə olduğum torpaqları işğaldan azad edəcəyimi fikirləşməmişdim. İnanın, ətrafa baxanda düşmənə daha da nifrətin artırdı, evləri, məzarları məhv ediblər. Həm sevinirdim, həm də ətrafa baxanda üzülürdüm.

**- Azərbaycan Ordusu işğalçı ermənilərı ərazilərimizdən qovanda, eləcə də müharibə bitdikdən sonra bəzi xarici media orqanları, guya, əcnəbi muzdlu döyüşçülərin bizə köməyə gəldiyi barədə yalan məlumat yayırdılar. Hətta cənab Prezidentlə müsahibələrdə də xarici jurnalistlər bu yalanı dilə gətirməkdən çəkinmirdilər. Ön cəbhədə döyüşən bir zabit kimi bu məsələ barədə nə düşünürsən?**

- Belə yalanları eşidəndə adam həm gülür, həm də ağ yalanı dilə gətirənlərə əsəbiləşir. Bir zabit kimi deyə bilərəm ki, Azərbaycan Ordusu yetərincə güclüdür, heç bir muzdlu döyüşçüyə ehtiyacı yoxdur. Əskini düşünənlər qoy bircə fakt ortaya qoysunlar. Ölkə başçısının dediyi kimi, bütün dünya bizim gücümücü gördü, biz hamımız "Dəmir yumruq" olub terrorçu erməni ordusunu məhv edik. Bu Qələbəni biz qazandıq, kənar ölkənin döyüşçüsü yox. Bir söz deyim də, sizcə, bu torpaqda yaşayıb böyüyən yaxşı döyüşər, yoxsa kənardan gələnlər? Təbii ki, bu torpaqda yaşayanlar gəlib döyüşər və qalib olar. Ona görə də məntiqi olmayan ermənilərin bu cür sözlərini ciddiyə almaq lazım deyil.

**- Dövlət başçısı tərəfindən 3 medalla da təltif olundun...**

- Bəli, cənab Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşam. Biz medal və təltif üçün döyüşmədik. Biz Qarabağda bu günə kimi həlak olan böyükdən kiçiyə hər bir azərbaycanlının qısasını almaq üçün döyüşdük. Və döyüşdən sonra bu diqqəti bizə göstərdikləri üçün Ali Baş Komandanımıza təşəkkür edirəm. Təsəvvür edirsiz, dünən marketdə çalışan birinin adı bu gün ölkə başçısının sərəncamında çıxır.

**- Müharibədən sonrakı həyatda vəziyyətin necədir, həyat necə davam edir?**

- Həyat çətin davam edir, çünki işsizəm. Müəyyən yerlərə, icra hakimiyyətinə, bir neçə rəsmi orqanlara müraciət etsəm də, işlə təmin oluna bilmirəm. Amma ümid edirəm ki, Vətən savaşında döyüşən və 3 medal alan bir zabit diqqətdən kənarda qalmayacaq.

**Turan Etibaroğlu**

---

44 günlük müharibə, 44 günlük fədakarlıq və tarixə yazılacaq ZƏFƏR! Dünyanı heyrətə gətirən bu qalibiyyətin əsas qəhrəmanları qanları ilə tarix yazan ŞƏHİDLƏR! Kimisinin atası, kimisinin oğlu, kimisinin həyat yoldaşı, kimisinin qardaşı torpaq üçün canlarından keçdilər. Bu xalq tarix boyu heç bir qəhrəmanını, heç bir şəhidini unutmayıb, unutmur və unutmayacaq!

# O məhəllə qəhrəmanlarına qucaq açdı

## 60 işıq dirəyinə 60 şəhidin şəklini vurublar

Mərdəkan qəsəbəsi Babək küçəsində yaşayan sakinlərin nəinki unutmaq, hətta hər kəsin hər zaman bu hadisələri daha yaxşı xatırlaması üçün gözəl təşəbbüs göstərdiklərini öyrəndik və heç vaxt itirmədən oraya yollandıq. Qarşımıza çıxan mənzərə hər kəs kimi bizdə də qürur hissi oyatdı. Gördük ki, onlar iki kilometrlik məsafədə 60 işıq dirəyinə 60 şəhidin şəklini vurublar. Şəkillərin üstündə doğum və şəhidlik tarixləri yazılıb. **Təşəbbüskar məhəllə sakinlərindən olan Şahin bəyin sözlərinə görə, müharibənin ilk vaxtlarından bu işi özünə borc bilərək, belə bir qərar verib.** Sonra yaxınlarının və məhəllə sakinlərinin dəstəyi ilə qısa zamanda bu vəzifə borcunu reallaşdırıb.

Şahin bəy bildirdi ki, şəhidlərimiz üçün atdığımız bu addımı öyrənən hər kəs maddi və mənəvi yardım göstərməyə çalışıb. Maddi xərclər öz tərəfindən qarşılansa da, şəkillərin və çərçivələrin hazırlanmasında məhəllə sakinlərinin zəhmətinin danılmaz olduğunu bildirdi. Hətta onlar öncədən şəhid ailələri ilə görüşərək onların da fikirlərini dinləyiblər. Şəhid ailələri bu işin həyata keçirilməsi üçün hər cür köməklik edə biləcəklərini söyləsələr də, bu, bizim onlara borcumuz olduğunu bildirdik - Şahin bəy söyləyib. Onun sözlərinə görə, ardıcıl şəkildə bu ailələrlə görüşür və hər hansı bir ehtiyaclarının qarşılanmasında köməklik etməyə çalışır. Şahin bəy təkcə şəhid ailələrinin deyil, bu şəkilləri görən hər kəs tərəfdən ona təşəkkür edildiyini bildirdi. Orada olduğumuz müddət də məhəllədən keçən hər kəsin ən azı bir dəfə dayanıb baxaraq dua oxuduğunun şahidi olduq. Şəhidini unudan bir xalqa şəhid hesabına var olan torpaqda yaşamaq haramdır. Biz o xalqlardan deyilik, heç bir zaman da olmadıq. Hər kəs VƏTƏNƏ borcunu müxtəlif şəkildə ödəyir. Bu borcu canları ilə ödəyən şəhidlər ən yüksək zirvəyə sahibdirlər. Bizim də borcumuz Unutmamaq! Və Unutdurmamaqdır!




**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**İmran Zeynalov**

# Gürcüstan doğru addım atdı

*Siyasi elita haqlı olaraq mövqeyini ortaya qoydu*



Ötən gün Gürcüstana səfər edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Əli Nağıyev gürcüstanlı həmkarı Qriqol Liluaşvili ilə görüşüb.

Tərəflər Gürcüstan-Azərbaycan arasındakı təhlükəsizlik sahəsində əməkdaşlığın mövcud durumunu və perspektivlərini müzakirə ediblər. Qriqol Liluaşvili Gürcüstan və Azərbaycan arasında təhlükəsizlik sahəsindəki münasibətlərin dərinləşdirilməsinin və iki xidmət arasında əməkdaşlığın intensivləşdirilməsinin vacibliyini vurğulayıb.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə deyib ki, DTX sədri Əli Nağıyevin Gürcüstana yollanması iki ölkənin dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinə, regional təhlükəsizliyin təmin olunmasına xidmət edir.** Onun sözlərinə görə, görüşlərdə regionda mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, beynəlxalq terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin təkmilləşdirilməsi geniş müzakirə olunub: "Eləcə də Gürcüstanın İkinci Qarabağ müharibəsi za-

"Rusiyanın Ermənistandakı hərbi bazasını gücləndirmək və genişləndirmək siyasətini yürütməsi yaxın perspektivdə Gürcüstanın suverenliyi üçün də real təhlükəyə çevrilə bilər"

manı Azərbaycana qarşı obyektiv və səmimi davranması da ayrıca qeyd olunub. Gürcüstan 44 günlük savaş dönəmində özünü həqiqətən də əsl qonşu kimi apardı. Bunu Prezident İlham Əliyev öz müsahibə və açıqlamalarında qeyd edib. Biz Gürcüstanla strateji müttəfiqliyimizin bundan sonra da davam etdirilməsində maraqlıyıq. Düzdür, son zamanlar Gürcüstan Prezidenti Salome Zurabişvilinin bəzi qeyri-adekvat və xoş olmayan addımlarının da şahidi olmuşuq. Lakin bu insidentləri nəzərə almasaq, qonşu ölkə ilə münasibətlərimiz hazırda kifayət qədər yüksək səviyyədədir. Onsuz da Zurabişvilinin hansı mövqedən çıxış etməsi Gürcüstan-Azərbaycan münasibətlərinin möhkəmliyinə heç bir xələl gətirə bilməz. Çünki Gürcüstanda prezident simvolik səlahiyyətlərə malikdir. Bu ölkənin siyasi gündəmini və xarici siyasət prioritetlərini prezident yox, baş nazir müəyyən edir, həyata keçirir".

**Ə.Hüseynov Gürcüstan tərəfinin Rusiyadan Ermənistana gedən içi silah dolu iki yük maşınının sərhəddən keçməsinə icazə verməməsini yüksək qiymətləndirib:** "Gürcüstanın bu addımı indi Ermənistanda sıx müzakirə edilir. Ermənilər öz ənənəvi, xəbis xislətlərinə sadiq qalaraq Gürcüstanı buna görə kəskin şəkildə tənqid də edirlər. Əslində isə Gürcüstan tamamilə düzgün addım atıb. Güllə keçirməz içliklərlə dolu olan iki avtomobilin geri qaytarılması Gürcüstanın öz təhlükəsizliyini təmin etmək baxımından olduqca önəmlidir. Ölkənin siyasi elitası haqlı olaraq hesab edir ki, Rusiyanın Ermənistandakı hərbi bazasını gücləndirmək və genişləndirmək siyasətini yürütməsi yaxın perspektivdə Gürcüstanın suverenliyi üçün də real təhlükəyə çevrilə bilər. Gürcüstan öz təhlükəsizlik maraqlarını Ermənistanın və Rusiyanın maraqlarına qurban verməməlidir. Bu baxımdan, ermənilərin rəsmi Tiflisin hərbi yük avtomobillərini öz ərazisindən Ermənistana buraxmamasını tənqid etmələrinin heç bir əsası yoxdur".

**İsmayıl Qocayev**

# Koçaryan bilir ki, seçilmək şansı yoxdur

*Buna görə keçmiş prezident küçə etirazlarından danışır*

Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkiləri asan olmayacaq, nəhəng təşviqat işi aparmaq, komissiyalar qurmaq lazımdır. Bu barədə Ermənistanın keçmiş prezidenti Robert Koçaryan tərəfdarları ilə görüşdə deyib. Onun sözlərinə görə, seçki günü məntəqələrdə səsləri qorumaqda qətiyyətli və inadkar olan böyük vəkil ordusuna sahib olmaq lazımdır.

İkinci prezident gələcək təşviqat qərargahının demək olar ki, formalaşdığını və bu istiqamətdə işlərin davam etdiyini söyləyib: "Hər kəsin bu işlərdə iştirak etmək imkanı var. İstəyinizə və hazırlıq dərəcənizə əsasən sizə müxtəlif iş istiqamətləri təklif ediləcək. Əmin edirəm ki, hər biriniz bu prosesdə öz yerini tapacaq". Koçaryan əlavə edib ki, seçkilər asan olmayacaq: "Küçə mübarizəsində ixtisaslaşdığımızı başa düşürəm. Çox güman ki, belə bir mübarizəyə ehtiyac olacaq". O, həmçinin Nikol Paşinyanın şansı olmadığını anladığından hüquq-mühafizə sisteminin daha təmkinli davranacağına ümid etdiyini deyib. **Mövzuya münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi-şərhçi Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, Robert Koçaryanın Ermənistanda yenidən iqtidara gəlmək məsələsi beynəlxalq güclər tərəfindən istənilən bir məsələdir:** "Burda beynəlxalq güclər deyəndə, təbii ki, Rusiya faktorunu nəzərdə tuturam. Əslində hazırda Ermənistanda növbədənkənar par-



"Koçaryan Paşinyanı küçədən hakimiyyətə gələn savadsız bir adam kimi dəyərləndirirdi. Amma indi özü xalq arasında heç bir reytinqin olmadığını görüb küçələrə çıxmaq və küçə hərəkatlarının hansısa bir alternativ akt olacağını qəbul edir"

lament seçkiləri Nikol Paşinyan və Robert Koçaryanla yanaşı, eyni zamanda Qərb və Rusiya qarşıdurması kimi nəzərdən keçirilə bilər. Çünki Paşinyanın Rusiya prezidentinə yalvarışlarına, Rusiyaya səfər cəhdlərinə baxmayaraq düşünürəm ki, Rusiya siyasi hərbi elitasında Nikol Paşinyan xain, xəyanətkardır. Həmçinin o, regiondakı prosesləri anlamayan bacarıqsız adam olması ilə bağlı qənaətlər möhkəmdir. Bu baxımdan fikrimcə, Paşinyanın bölgə ilə bağlı atdığı hansısa addımlar və Rusiya haqqında söylədiyi saxta pozitiv fikirləri heç bir dəyəri yoxdur. Bunu da Rusiya siyasi elitasında çox gözəl anlayırlar".

**T.İsmayılov qeyd edib ki, uzun illər Rusiya ilə əlaqələri olan Robert Koçaryan kimi qatilin bu seçkilərə qoşulma prosesi də özlüyündə çox ciddi düşündürücü bir məsələdir:** "Çünki rəy sorğuları da göstərir ki, Robert Koçaryanın ümumiyyətlə, Ermənistanda iqtidara gəlmə şansları zəifdir. Məhz bu zəiflik faktorunu nəzərə alan Koçaryan da sonuncu müsahibəsində küçə iğtişaşlarının olma ehtimalından bəhs edib. Əslində bunun özü də absurddur. Çünki Koçaryan Paşinyanı küçədən hakimiyyətə gələn savadsız bir adam kimi dəyərləndirirdi. Amma indi özü xalq arasında heç bir reytinqin olmadığını görüb küçələrə çıxmaq və küçə hərəkatlarının hansısa bir alternativ akt olacağını qəbul edir. Bununla bağlı erməni xalqına müxtəlif çağırışlar edir. Mən düşünürəm ki, seçkilər ərəfəsində may və iyun ayında, eyni zamanda seçkilərdən sonra payız ayında, həm də növbəti ilə yəni 2022-ci ilə qədər Ermənistanda çox siyasi hadisələr baş verəcək. Bütövlükdə isə ölkədəki demoqrafik problem - işsizlik, əhalinin başqa ölkələrə axını, ordunun məhv olması, ölkədə komandanlıq və siyasi idarəetmə arasındakı əlaqələrin itməsi Ermənistanın gələcəyi üçün yaxşı heç nə proqnozlaşdırmır. Hesab edirəm ki, Ermənistanda hakimiyyətə kimin gəlməyindən asılı olmayaraq, bundan sonra onu hansısa bir dövlətçilik platforması səviyyəsində inkişaf etdirmək, yaxud da ki, dünyada hansısa bir qərarda söz sahibi ola biləcək ən xırda ölkə halına gətirmək mümkün olmayacaq".

**Aynurə Pənahqızı**



## 1200 nəfər evakuasiya edilib

İkinci Dünya müharibəsindən qalan bomba zərərsizləşdirilib

**Almaniyanın Köln şəhərində İkinci Dünya müharibəsindən qalan partlamamış bomba zərərsizləşdirilib.**

Köln Böyükşəhər Bələdiyyəsinin verdiyi açıqlamaya görə, Merheim bölgəsində inşaat işləri əsnasında tapılan və Amerika istehsalı olan 50 kiloqramlıq bomba məhv edilib.

"Şərq" "Haberturk.com"a istinadən bildirir ki, bomba zərərsizləşdirilərkən bölgədə yaşayan təxminən 1200 nəfər evakuasiya edilib.

Evakuasiya edilənlər arasında 19 nəfərin yeni tip koronavirus xəstəliyindən karantində olduğu bildirildi.

**Yeganə Bayramova**

## Navalnının qərargahı terrorizmdə suçlandı



**Navalnının qərargahı terrorizm və ekstremist fəaliyyətlə məşğul olan təşkilatlar siyahısına daxil edilib.**

Bu barədə "Şərq" TASS- a istinadən xəbər verir.

Baş Prokurorluq hesab edir ki, bu təşkilat ictimai və ictimai-siyasi vəziyyətin sabitləşməsi üçün şərait yaratmaqla məşğuldur. "Fəaliyyətinin əsl məqsədi konstitusiya sisteminin əsaslarını dəyişdirməkdir"- deyə, prokurorluğun məlumatında bildirilib.

**Kənan**

## Rus vaksini təhlükəsizdir

Fəxrəddin Qoca Sputnik-V-dən istifadəyə qərar verib



**Türkiyə Səhiyyə naziri Fəxrəddin Qoca Sputnik-V vaksini ilə bağlı mühüm açıqlama verib.**

"Şərq" "Habertürk"ə istinadən xəbər verir ki, nazir rus istehsallı peyvəndin təhlükəsiz olduğunu deyib. O, Sputnik-V barədə təcili istifadə qərarı qəbul edib.

"İki ölkə üçün də xeyirli olsun. Beləliklə, üçüncü peyvənd olaraq Sputnik-V də ölkəmizdə istifadə ediləcək". - deyə, F. Qoca əlavə edib.

**Kənan**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Geriyə dönüş yoxdur

## *Qarabağa heç bir status verilməyəcək*



Məlum olduğu kimi Rusiya Prezidenti Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub. Kremlin yaydığı məlumata görə, telefon danışığı zamanı tərəflər Qarabağ ətrafındakı vəziyyəti müzakirə ediblər. Dövlət başçılarının telefon söhbətində Qarabağda vəziyyətin ümumən sakit qalması və Rusiya, Azərbaycan, Ermənistan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci bəyanatlarının həyata keçirilməsi ilə bağlı işin davam etməsindən məmnunluq qeyd olunub.

Prezidentlərin telefon danışığından sonra yayılan açıqlamada belə bir cümlə yer alıb: ”Makron və Putin yaxın zamanlarda Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ATƏT-in Minsk qrupu çərçivəsində yeni təşəbbüslər hazırlayacaqlar”. Məlumdur ki, Qarabağ münaqişəsi başa çatsa da, Rusiya və Fransa həmsədrlik institutunun bərpası üçün can atır. Halbuki, Azərbaycan Prezidenti dəfələrlə münaqişənin başa çatdığını, tarixə qovuşduğunu vurğulayıb. Rəsmi şəkildə ATƏT-in Minsk qrupunun ”kitabının bağlandığı” açıq şəkildə bəyan edilib. Ekspertlərin fikrincə, Fransa və Rusiyanın Qarabağla bağlı Azərbaycanın iştirakı olmadan müzakirə aparmaları yolverilməzdir. Bu ölkələrə ATƏT-in Minsk qrupu çərçivəsində mandat verilmişdi ki, münaqişənin nizama salınmasında yaxından iştirak etsinlər. Lakin Fransanın da vasitəçilik etdiyi missiya ermənilərin başına sığal çəkməklə prosesi 30 il uzatdı. Sonra Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad etdi. 44 günlük müharibənin gedişində və ondan sonrakı dönəmdə Fransanın davranışları göz qabağında oldu. Rəsmi Paris açıq şəkildə Ermənistanı dəstəklədi. Rusiya öz üzərinə vasitəçiliklə bağlı mühüm öhdəlik götürdü və Minsk qrupundan kənarda missiya həyata keçirməyə başladı. Bu baxımdan Rusiyanın tərəflərin iştirakı olmadan Qarabağ müzakirəsi aparması Moskvanın sülhməramlı missiyasına da uyğun gəlmir. Görünür, rəsmi Parisdən sonra, Kreml də Qarabağda qalan ermənilərin ”status” məsələsini yenidən gündəmə gətirmək istəyirlər. ”Statusla” bağlı da Azərbaycanın qəti mövqeyi hamıya bəllidir. Dəfələrlə bəyan edilib ki, Qarabağdakı ermənilər Azərbaycan vətəndaşı kimi bütün hüquqlardan istifadə edə bilərlər. Əgər Fransa və Rusiya bu cəhdi Minsk qrupu həmsədri kimi edirsə, bu da yersizdir. Bununla da bağlı Azərbaycan öz mövqeyini açıqlayıb. Dövlət başçısı səviyyəsində qeyd olunub ki, Minsk qrupu bundan sonra münaqişənin həlli ilə deyil, humanitar aksiyalarla məşğul olmalıdır. Çünki 30 ilə yaxın dalana dirənmiş münaqişənin həllinə Azərbaycan öz gücünə nail olub.

Belə məqamda ATƏT-in Minsk qrupuna ”ikinci nəfəs” vermək cəhdləri boşunadır. Heç şübhəsiz, həmsədrlik institutunun yenidən boy göstərməsi revanş hissi ilə alışıb yanan İrəvanın da marağındadır. Çünki söhbət 27 sentyabra qədər mövcud olmuş köhnə ”status-kvo”nun bərpasından gedir. Öz havadarlarından ruhlanan Ermənistanda bəzi siyasətçilər 10 noyabr anlaşmasını adi atəşkəs anlaşması kimi təqdim eləməyə başlayıblar. Guya, konfliktin həlli ”öz müqəddəratını təyinetməyə” əsaslanan başqa bir razılaşma ilə mümkündür.

Putin və Makron görüşündə ictimaiyyətə açıqlanan müzakirə elementləri Ermənistanın eks-prezidenti Robert Koçaryanı da ”ruhlandırıb”. Koçaryan yenidən revanşist fikirlər səsləndirib. Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyəti və iqtisadiyyatda yaranmış çətinlikləri idarəetmədəki problemlərlə əlaqələndirən eks prezident sərsəmcə bildirib ki, əgər danışıqlar prosesində mövqelərini möhkəmləndirsələr, nəticədə bütün ”əsirləri”, Şuşanı və Hadrutu geri qaytara, regionun ”ən güclü dövlətinə” çevrilə bilərlər.

Halbuki, Prezident İlham Əliyev bir neçə gün əvvəl Zəngilana səfəri zamanı növbəti dəfə Ermənistandakı revanşist dairələrə sərt xəbərdarlıq etmişdi. Dövlət başçısı ötən gün sərhəddə baş verən təxribata da diqqət çəkərək ”Dəmir yumruğ”u xatırlatmışdı: ”Son günlər Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər. Onlara bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. ”Dəmir yumruq” düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq.

## “ATƏT-in Minsk qrupuna "ikinci nəfəs" vermək cəhdləri baş tutan deyil”

Erməniləri təhlükəli havalara köklənməyə vadar edənlər, regionda daimi sülhün marağında olmayanlardır. Fransa da Minsk qrupunun həmsədri kimi probleminin birdəfəlik həllinə töhfə vermək üçün deyil, ”qaşınmayan yerdən qan çıxartmaq” üçün fəallıq nümayiş etdirir.

Rusiyalı tanınmış analitik İqor Korotçenko da deyib ki, Fransanın İrəvanın mövqeyini dəstəkləməyə yönəlik səylərinin artdığı görünür. İnformasiya sahəsində aktiv qarşıdurma gedir. Azərbaycan ərazilərin əksəriyyətini qaytarıb. Erməni diasporu isə aqressiv şəkildə anklavı qorumaq və ona siyasi və hərbi özəllik təmin etmək ideyasını təbliğ edir. Bəli, beynəlxalq hüquq baxımından bütün Qarabağ Azərbaycan ərazisidir. Ancaq erməni diasporunun bu təcavüzkar fəaliyyətinin fərqinə varmamaq, onu gözardı etmək də olmaz. Əlbəttə, Qarabağın heç bir siyasi tanınması olmayacaq”. Rusiyalı politoloq düşünür ki, xaricdəki maraqlı güclər ən azı, Rusiya sülhməramlı missiyasının bitməsindən sonra da ”status-kvo”nun qalmasını istəyirlər: ”Erməni diasporları indi bu amilin siyasi gündəmdə qalması üçün hər şeyi edir. Fransa yüksək rütbəli siyasilərinin 24 apreldə verdikləri açıqlamalar elə-belə idimi? Əlbəttə yox. Ermənistan dayanmalı və Azərbaycanla tam hüquqlu bir sülhə getməlidir. Əfsus ki, dünyada çoxları var ki, Cənubi Qafqazda sülhdə maraqlı deyillər”.

**”Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında bildirib ki, Moskva Bakı və Ankara tandemi qarşısında təklənməkdən çəkinir.** Ona görə də Qarabağ ətrafındakı prosesə Fransa və ABŞ-ı da qoşmağa çalışır: ”Rusiya yanına Parisi də almaqla Azərbaycan və Türkiyənin mövqeyini zəiflətməyə çalışır. Daha doğrusu, rəsmi Bakının bir qədər çəkilməsi üçün fəallıq nümayiş etdirir. Bir çox məsələlərdə aralarında kəskin mövqe fərqliliyi olan Rusiya və Qərb ölkələri, o cümlədən Fransa Qarabağ mövzusunda bir cəbhədə çıxış edirlər. Azərbaycanın əleyhinə çıxırlar. Moskva maraqlıdır ki, ATƏT-in Minsk qrupu yenidən dirçəlsin və prosesə müdaxilə etsin. Kreml yaxşı bilir ki, həmsədrlərin fəaliyyəti problemlərin yekun həllinə deyil, əksinə, mümkün qədər uzadılmasına xidmət edir. Bakı və Ankara bu cəhdlərə imkan verməməlidir. Moskvaya mesaj verilməlidir ki, əgər Rusiya Qərbdən aldığı dəstəklə 10 noyabr Bəyannaməsini pozmağa yönəlik addımlar atacaqsa, ölmüş ”status” məsələsini yenidən gündəmə daşımağa çalışacaqsa, rəsmi Bakı sülhməramlıların nəzarətində olan əraziləri öz yurisdiksiyasına qoşmaq üçün hərəkətə keçəcək. Əgər Kremlə konkret və sərt etiraz bildirilməsə, Moskva ”təkərə çomaq soxmaq” cəhdlərindən əl çəkməyəcək”.

**Bakı Politoloq Klubunun sədri, politoloq Zaur Məmmədov da vurğulayıb ki, Rusiya bu məsələlərdə ikibaşlı oyun oynamamalıdır:** ”Putin və Makron arasında telefon danışığından sonra iki istiqamətdə xəbərlərin şahidi olduq. Kreml sadəcə olaraq prezidentlərin Qarabağ haqqında danışdıqlarını və üçtərəfli bəyanatın reallaşması ilə bağlı pozitiv fikirlər olduğunu bildirdi. Bunun əksi olaraq Paris ikibaşlı mətni yazdı. Erməni saytları və fransız nəşrləri ”Makron və Putinin Qarabağla bağlı Azərbaycana, Ermənistana təkliflər üzərində işlədiklərini” yazdılar. Yaxın vaxtlarda həmin təkliflər tərəflərə təqdim ediləcək. Əgər doğrudan da belədirsə, bu, reallığa uyğun olmayan addım olar. Çünki cənab Prezident bir neçə dəfə qeyd edib ki, ”Dağlıq Qarabağ münaqişəsi” artıq yoxdur. Münaqişə tarixdə qalıb, gələcəyə baxmaq lazımdır. Təəssüflər olsun ki, hələ də ”münaqişə” ərtafında dialoqun davam edilməsinin zərurəti haqda çıxışlar eşidirik. Hər kəs bölgədəki gələcək sülh əməkdaşlığına baxmalıdır. Başa düşürük ki, onlar bölgədə erməni məsələsi adı altında Qarabağdakı separatçılar vasitəsi öz maraqlarını həyata keçirmək istəyirlər. Bu maraq da 20-30 ilin marağı deyil. Yüz illərin marağıdır. Lakin onlar yeni reallıqla barışsalar, özləri üçün daha yaxşı ola bilər”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Ərzaq məhsullarının qiyməti bahalaşır

*“Süni qiymət artımı Gömrük Komitəsi tərəfindən əsassız olaraq gömrük bəyannamələrində artırılır”*



Son günlər bəzi ərzaq məhsullarının qiymətində artım müşahidə olunur. Əməkdaşlarımız məsələni dəqiqləşdirmək üçün bir neçə mağazada olublar.

Əvvəllər 7.60 AZN-a olan ”Zolotoe Solnişko” duru qarğıdalı yağının qiyməti hazırda 10.40 AZN-dır. Bahalaşmanın hansı səbəbdən qaynaqlandığı isə bilinmir. Hətta bu hal bəzi narazılıqlara da səbəb olur. Şəhəri bürüyən bahalaşma dalğası isə aidiyyəti qurumları qətiyyən narahat etmir. İqtisadçı-alim Nazim Bəydəmirli ”Şərq”ə açıqlamasında təəssüflə bildirib ki, dünya bazarında bu tipli yağların tonu qablaşdırılmamış halda təqribən 1000 dollar ətrafındadır: ”Bizə ərzaq məhsulları idxal edilən ölkələrdə - Rusiya və Ukraynada qiymətlər çox baha deyil. Rusiyada 120 rubl təxminən 1 dollar 60 sent civarındadır. Bu civarda olan malın Azərbaycana gəlib çıxması təbii ki, iqtisadiyyatımızda və gömrük sistemində ciddi inhisarçılığın olmasından xəbər verir.

Hesab edirəm ki, Azərbaycan vətəndaşlarının bu duruma salınmasının səbəbi süni qiymət artımıdır. Süni qiymət artımı Gömrük Komitəsi tərəfindən əsassız olaraq gömrük bəyannamələrində artırılır. Beləliklə, sahibkarlara müəyyən məhdudiyyət yaradılır”.

**İqtisadçı qeyd edib ki, daxili bazarımızın monopoliyaya alınması ilə həmin mala tələbat olduğu halda Azərbaycan sahibkarları məhsulu xarici bazarlardan ən çoxu 1000 dollara alır:** ”Sözügedən məhsul ölkəmizə qablaşdırılmış şəkildə daxil olanda 2.50-3 manatdan artıq ola bilməz. Lakin bu məhsulun üç qat baha satılması soyğunçuluqdur. Hesab edirəm ki, bu soyğunçuluğu həm məmur sahibkarlığı, həm də Gömrük Komitəsinin müvafiq bəyannamə qiymət siyasəti yaradır”.

**Yeganə Bayramova**

## Masallıda ər və arvadı bıçaqlanıb

Yaralılar xəstəxanaya yerləşdirilib



**Masallı rayonunda bıçaqlanma hadisəsi baş verib.**

APA-nın cənub bürosunun verdiyi məlumata görə, hadisə rayonun Ərkivan qəsəbəsində qeydə alınıb.

Təxminən 20-25 yaşlarında olan ər və arvadı qohumları evə gələndə huşsuz vəziyyətdə döşəməyə yıxılmış formada tapıblar.

Hər ikisinin bıçaq xəsarətləri aldığı bildirilir. Onlar Lənkəran Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Vəziyyətləri ağır olaraq qiymətləndirilir.

Bıçaqlanan şəxslər 1986-cı il təvəllüdlü Eşqin Qədir oğlu Əbilzadə və 1995-ci il təvəllüdlü Nərmin Sadiq qızı Əbilzadədir.

Hazırda hadisəni törədən şəxs və ya şəxslərin kimliyi dəqiqləşdirilir.

Faktla bağlı araşdırma aparılır.



# “Ağ” ölümün qarşısını birlikdə almalıyıq...

“Cəmiyyətə birgə mübarizənin nə demək olduğunu göstərmişik”

Ötən günlərdə sosial şəbəkələrdə "Ramin yeraz" kimi tanınan şəxsin canlı yayımlar açaraq narkotik vasitələrin təbliğini həyata keçirməsi və ictimaiyyətə yönəlik təhqiramiz ifadələr işlətməsi barədə vətəndaşlardan daxil olmuş çoxsaylı şikayətlər əsasında Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən müvafiq tədbirlər görülüb. Paytaxtın Nizami rayon sakini olan Ramin İsmayılov narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilindiyi üçün saxlanılıb. Şəxsi axtarış zamanı onun üzərindən 5,140 qram heroin aşkar edilərək götürülüb.

*Baş verənləri ”Şərq”ə dəyərləndirən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni bildirib ki, dövlət səviyyəsində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı ciddi mübarizə aparılır:* ”İstər hüquq-mühafizə orqanları, istər dövlət orqanları bu bəlanın, ”ağ” ölümün qarşısını almaq üçün əzmlə mübarizə aparırlar. Narkoticarətlə məşğul olanlar həbs edilirlər. Bununla bağlı kütləvi informasiya vasitələrimizdə də davamlı məlumatlar yer alır.

QHT-lər, vətəndaş cəmiyyəti uzun müddətdir ki, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı maarifçilik işləri aparır, yüzlərlə layihələr, flaşmoblar, ”narkotiklərə yox deyək” adlı müxtəlif tədbirlər həyata keçirilir. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası var. Biz də bu komissiyasının üzvüyük, ona görə də QHT-ləri məhz bu istiqamətdə maarifçilik aparmağa sövq edirik.

MQF-nin təşəbbüsü ilə 12 QHT-nin təsisçiliyi ilə ”Narkomanlığa qarşı Mübarizə QHT koalisiyası” yaradılıb. Yeni yaranan bu koalisiyanın da qarşısında müəyyən fəaliyyət planı var. Yəni hansı tədbirlər görülməlidir ki, həm ölkəmizdə narkomanların sayı azalsın, həm də narkotik vasitələrin ölkəyə gətirilməsinin qarşısı alınsın. Bu istiqamətdə müəyyən tədbirlər və planlar görüləcək”. **R.Zeyni vurğulayıb ki, MQF və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası son 10 il ərzində müxtəlif rayonlarda tədbirlər keçirib:** ”Bu tədbirlərdə həm dövlət qurumları, həm QHT-lər, həm də vətəndaş cəmiyyəti və ictimaiyyət nümayəndələri iştirak ediblər. Cəmiyyətə birgə mübarizənin nə demək olduğunu göstərmişik. Komissiyanın mütəmadi iclasları keçirilir. Komissiyanın sədri, Baş nazirin müavini Əli müəllim də iştirak edir və dövlətin apardığı siyasətin istiqamətləri müəyyənləşdirilir. Düşünürəm ki, dövlət qurumları ilə QHT-lər bu istiqamətdə daha çox fəaliyyət göstərməli və daha böyük layihələr həyata keçirməlidirlər. Təbii ki, bu layihələrin həyata keçirilməsi üçün dövlət səviyyəsində imkanlar və şəraitlər yaradılmalıdır. İnanıram ki, birlikdə güclüyük və birlikdə mübarizə apardıqca, ”ağ” ölümün, bəşəri bəlanın Azərbaycanda qarşısının alınmasında müəyyən nailiyyətlər əldə edə biləcəyik”.

**Yeganə Bayramova**

# Alternativ enerjinin xüsusi çəkisi artacaq

Prezident İlham Əliyev qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi üçün Azərbaycan Respublikası hökuməti adından imzalanmış müqavilənin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.



*“Yaxın perspektivdə “Azərenerji”nin inhisarçılığı zəifləyəcək”*

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz ”Şərq”ə açıqlamasında bildirib ki, hökumətin bu istiqamətdə səyləri düşünməyə əsas verir ki, yaxın perspektivdə ”Azərenerji”nin inhisarçılığı zəifləyəcək.** O qeyd edib ki, bununla da ümumi şəbəkəyə inteqrasiya olunan alternativ enerjinin xüsusi çəkisi artacaq: ”Bir müddət öncə Prezident 230 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi barədə də Sərəncam imzalamışdı. Bu stansiya Birləşmiş Ərəb Əmirliklərinin ”MASDAR” şirkəti tərəfindən qurulacaq. Bu gün Prezident gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi ilə bağlı Müqaviləni təsdiqləyib. Müqavilə Səudiyyə Ərəbistanının ”ACWA Power Azerbaijan Renewable Energy” şirkəti tərəfindən icra olunacaq. Qeyd edim ki, ”ACWA Power” və ”Masdar” şirkətlərinin bərpaolunan enerji mənbələri sahəsində həyata keçirəcəkləri pilot layihələr, ümumilikdə 300 milyon dollardan artıq qiymətləndirilir. Energetika Nazirliyi və digər qurumlar uzun müddətdən bəri bu layihələrin reallaşması üzərində çalışırdılar. Hələlik adıçəkilən qurumların beynəlxalq tərəfdaşla birgə hazırladığı ”Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Qanun layihəsi müzakirəyə çıxarılmayıb. Hazırda Azərbaycanda elektrik enerjisinin 91,9 faizi ənənəvi enerji resursundan - təbii qazdan alınır. Yəni bu sektorda inhisarçılıq ”Azərenerji”nin nəzarətindədir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı ümumi istehsalın cəmi 8,1 faizi həcmindədir. Hökumətin bu istiqamətdə səyləri düşünməyə əsas verir ki, yaxın perspektivdə ”Azərenerji”nin inhisarçılığı zəifləyəcək və ümumi şəbəkəyə inteqrasiya olunan alternativ enerjinin xüsusi çəkisi artacaq”.

**Aynurə Pənahqızı**

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxladı




*İqtisadçı ekspert hesab edir ki, bu qərar bazar faizlərinə ciddi təsir göstərməyəcək*

Mərkəzi Bank İdarə Heyəti uçot dərəcəsinin sabit saxlanılması haqda qərar qəbul edib.

Bu barədə faiz dəhlizinin parametrlərinə dair onlayn mətbuat konfransında çıxış edərkən Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib.

Beləliklə, uçot dərəcəsi 6,25 faizdə, faiz dəhlizinin aşağı həddi 5,75 faiz, faiz dəhlizinin yuxarı həddi isə 6,75 faiz səviyyəsində qalıb. Xatırladaq ki, faiz dəhlizinin parametrlərinə dair növbəti qərarlar 18 iyun, 30 iyul, 17 sentyabr, 29 oktyabr, 17 dekabr tarixlərində nəzərdə tutulub. Qeyd edək ki, 30 iyul və 29 oktyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaq. Maraqlıdır, Mərkəzi Bankın uçot dərəcəsini sabit saxlamasının kredit portfelinə təsiri nədən ibarət olacaq?

**Sualımızı cavablandıran, bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov "Şərq"ə söyləyib ki, Mərkəzi Bankın uçot dərəcəsi bazar faizlərinə ciddi təsir göstərmir:** "Çünki uçot dərəcəsi Mərkəzi Bankın banklara verdiyi faiz dərəcəsidir. İnkişaf etmiş ölkələrdə isə uçot dərəcəsini artıranda bazarda faizlər qalxır, endirəndə isə azalır. Çünki banklar Mərkəzi Bankdan krediti ucuz götürürsə ucuz, baha götürürsə baha verir.

Ölkəmizdə isə bu mexanizm işləmir. Səbəbi isə odur ki, Azərbaycandakı hər bir bank Mərkəzi Bankdan kredit götürə bilmir.

Bunun şəffaf və birmənalı qaydası, mexanizmi yoxdur. Hər bank Mərkəzi Bankdan kredit götürə bilmədiyi üçün bu mexanizm işləmir. Bu baxımdan uçot dərəcəsinin sabit saxlanmasının ölkəmizdəki bankların kredit portfeli üçün əhəmiyyəti böyük deyil".

**Yeganə Bayramova**

## II-XI siniflər üçün yekun milli qiymətləndirilmə keçiriləcək



**Təhsil Nazirliyi tərəfindən II-XI sinif şagirdləri üçün yekun milli qiymətləndirilmə keçiriləcək.**

APA-nın məlumatına görə, bu barədə artıq təhsil müəssisələrinə məlumat göndərilib. Yekun qiymətləndirmənin iyun ayının 5-dən 14-nə qədər davam edəcəyi gözlənilir.

*Qeyd edilib ki, I siniflər üçün qiymətləndirmə keçirilməyəcək.*

## Türkiyəyə səfər edən Azərbaycan vətəndaşlarının sayı artıb

**2021-ci ilin martında Azərbaycandan Türkiyəyə 22 365 turist səfər edib ki, bu da 2020-ci ilin martı ilə müqayisədə 46,6 faiz çoxdur.**

Bu barədə Trend-ə Türkiyə Mədəniyyət və Turizm Nazirliyindən bildiriblər.

Hesabat dövründə Türkiyəyə səfər etmiş əcnəbilər arasında Azərbaycan vətəndaşlarının payı 1,86 faiz təşkil edib.

Yanvar-mart aylarında 54 220 Azərbaycan vətəndaşı Türkiyəyə səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 55,63 faiz azdır.

2021-ci ilin yanvar-mart aylarında Türkiyəyə səfər etmiş əcnəbilər arasında Azərbaycan vətəndaşlarının payı 2,78 faiz təşkil edib.

Nazirliyin məlumatında qeyd edilir ki, 2021-ci ilin yanvar-mart aylarında Türkiyəyə 2,689 milyon turist səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 50,66 faiz azdır.



# ƏDV-yə sıfır dərəcəsi əlavə ediləcək

*"Yükdaşımalar bazarında yerli şirkətlərin rəqabətə davamlılığı artırılır"*

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, eləcə də Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə avtomobil nəqliyyatı vasitələri ilə yükdaşımalarda iştirak edən yerli şirkətlərlə onlayn format-da görüş keçirilib.

Bu barədə Dövlət Vergi Xidmətindən məlumat verilib. Qeyd edilib ki, beynəlxalq yükdaşıma sahəsində nəqliyyat-ekspedisiya xidməti göstərən şirkətlərin fəaliyyətinə vergi təşviqlərinin verilməsi nəzərdə tutulur. Ekspeditorların fəaliyyəti üzrə xidmətlərin ƏDV-yə sıfır dərəcəsi ilə cəlb edilməsi təklifi artıq cari il üçün Vergi Məcəlləsinə dəyişikliklər layihəsinə əlavə edilib. Tədbirdə müvafiq sahə üzrə vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı qaldırılan məsələlərin və təkliflərin diqqətdə saxlanılacağı qeyd olunub, habelə daşıyıcıların fəaliyyətinin rəsmiləşdirilməsi ilə bağlı Vergi siyasəti baş idarəsinin müvafiq strukturu ilə birlikdə müvafiq təlimatların hazırlanması sahəsində qarşılıqlı əməkdaşlığın davam etdiriləcəyi vurğulanıb.

**İqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında qeyd edib ki, beynəlxalq yükdaşıma sahəsində nəqliyyat-ekspedisiya xidməti göstərən şirkətlərin fəaliyyətinə vergi təşviqlərinin verilməsi nəzərdə tutulur.** O vurğulayıb ki, ekspeditorların fəaliyyəti üzrə xidmətlərin ƏDV-yə sıfır dərəcəsi ilə cəlb edilməsi təklifi artıq cari il üçün Vergi Məcəlləsinə dəyişikliklər layihəsinə də əlavə edilib: "Nəqliyyat-ekspedisiya xidməti göstərən şirkətlərin fəaliyyəti nədir? O, yükgöndərən müştəri və yükalan müştəri arasında vasitəçilik göstərən şirkətdir. Bunu ev alan və satan şəxsin arasında vasitəçi kimi iştirak edən maklerə də bənzətmək olar. Amma bu şirkətin bir çox öhdəlikləri var". R.Qarayev qeyd edib ki, Azərbaycanda ümumi uzunluğu 19 min kilometrdən artıq olan avtomobil yollarının 4,7 min km-dən çoxu respublika əhəmiyyətlidir: "Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin dediyinə görə, işğaldan azad edilmiş ərazilərimizin bərpasından sonra bu yollara daha 2 min km əlavə edilmiş olacaq. Azad edilmiş torpaqlar və Naxçıvan vasitəsilə açılacaq yeni beynəlxalq tranzit marşrutları nəqliyyat-logistika sektorunda iştirakçılar üçün imkanları daha da genişləndirəcək. Yükdaşımalarda avtonəqliyyat vasitələri ilə daşımalar böyük yer tutur. Avtonəqliyyat vasitəsi ilə beynəlxalq yük daşıyan yerli şirkətlərin bu sahədə payının artırılması üçün mühüm addımlar atılması zəruridir. Orqanın da qeydindən aydın olur ki, bu sahənin inkişafı dövlətin diqqət mərkəzindədir. Beləliklə, yükdaşımalar bazarında yerli şirkətlərin rəqabətə davamlılığının artırılması məqsədilə ekspeditorların fəaliyyəti üzrə xidmətləri ƏDV-yə sıfır dərəcəsi ilə cəlb ediləcək".

**Aynurə Pənahqızı**

# Azərbaycanda rəqəmsal valyutadan danışmaq hələ tezdir

*"Elektron manata keçməkdənsə, biz nağdsız ödənişləri artırmalıyıq"*




Gürcüstanın Milli Bankı rəqəmsal milli valyutanın yaradılması layihəsinə başlayır. Bu barədə bankın yaydığı məlumatda bildirilib.Qeyd olunub ki, rəqəmsal texnologiyaların inkişafı larinin rəqəmsal versiyasının yaradılmasını zəruri edib.

"Milli Bank ödəmə sistemlərinin effektivliyinin və maliyyə əlçatanlığının artırılması üçün rəqəmsal valyutanın (CBDC) buraxılması imkanını nəzərdən keçirir. Rəqəmsal valyuta ödəniş vasitəsi statusuna malik olacaq. Layihə çərçivəsində bank fintex-şirkətləri və maraqlı maliyyə institutları ilə əməkdaşlığa hazırlıq ifadə edir", - məlumatda deyilir.

Mövzuya münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd edib ki, bir çox ölkələrin Mərkəzi Bankları kriptovalyutalar və yaxud da rəqəmsal valyutalar haqqında araşdırmalara başlayıblar: "Hətta Çində kriptovalyuta ilə bağlı qərar da verilib. Kriptoyuan, yəni elektron yuan haqqında müəyyən işlər gedir. Qeyd edim ki, hətta ölkənin bəzi hissələrində artıq bununla ödənişlər də qəbul olunur. Hesab edirəm ki, Gürcüstanın da buna qoşulması dünyada gedən bir trendin tərkib hissəsidir. Çünki hələlik onun dəbdən başqa hər hansı bir formada iqtisadiyyata pozitiv təsirləri ilə bağlı araşdırmalar yoxdur".

**N.Cəfərli vurğulayıb ki, artıq bir çox ölkələrdə ödənişlər elektronlaşıb:** "Dünyanın elə ölkələri var ki, məsələn, Avstraliyada pərakəndə ticarətin 95 faizi artıq elektronlaşıb, yəni hamı kartla ödəniş edir. Təbii ki, bunun özü də elektron valyutadır. Bu günləri elə bir ciddi araşdırma yoxdur. Bilək ki, elektron formada kartla ödənişlərlə kripto ödənişlərin fərqi nədən ibarət olacaq? Ona görə də, fikrimcə, bu hələlik bir dəbdir. Bəzi ölkələr də buna hazırlıq görürlər. Məsələn, birdən qlobal trendlər, keçidlər baş versə, buna hazır olsunlar. Tutaq ki, Amerikada, Avropada elektron dollara və yaxud da avroya keçid baş verdiyi təqdirdə həmin ölkələrdə keçid edə bilsinlər. Bu baxımdan zənnimcə, Azərbaycanda da bu məsələni araşdırmaq olar. Ancaq hesab edirəm ki, elektron manata keçməkdənsə, biz nağdsız ödənişləri artırmalıyıq. Bizdə nağdsız ödənişlər çox azdır. İlk növbədə Azərbaycanda nağdsız ödənişlərin həcmini dünya standartları səviyyəsinə, heç olmasa 75-80 faizə qaldırmalıyıq. Bu, ölkənin iqtisadiyyatının ağarmasına, yəni ölkə iqtisadiyyatında pozitiv dəyişikliklərə nail olmağımıza da kömək ola bilər. Həmçinin vergidən yayınmaların qarşısını almaq üçün də kifayət qədər pozitiv rol oynaya bilər".

**Aynurə**

# Musiqi ruhun qidasıdır














## *Deputatların da ən çox sevdiyi, dinlədiyi müğənnilər var*

Həyatın keşməkeşli, çətin günlərində nə vaxt yorulsaq, kədərlənsək, musiqiyə sığınırıq. Elə sevincli olanda da həmin ünvana üz tuturuq. Deyirlər, "Musiqi ruhun qidasıdır". Doğrudur. Gah həzin, gah şən nəğmələrlə estetik zövqümüzü oxşayır, cismimizi dincəldirik. Şübhəsiz, hər birimizin fərqli zövqü var. Hərə öz aləminə uyğun janrda mahnılar dinləyir, yaxud da hansısa bir müğənniyə pərəstiş edir.

Lakin bəzi sahələrin nümayəndələri var ki, onların zövqləri, nə sevdikləri, hansı sənətçiyə heyran olduqları xususilə maraqlıdır. Onların sırasında millət vəkillərimiz də var. Daim deputatlardan cəmiyyətlə əlaqəli mövzularda, yaxud da siyasi məsələlərdə danışmaqlarını istəmişik. Bu dəfə isə özlərindən bəhs etmələri üçün bir neçə millət vəkili ilə əlaqə saxladıq. Soruşduq ki, ən çox dinlədiyiniz və sevdiyiniz müğənni, yaxud da xanəndə kimdir? Hansı janrda mahnıları bəyənirsiniz?

**Əvvəlcə "Şərq"in suallarını millət vəkili Elman Məmmədov cavablandırdı. Elman müəllim Azərbaycan muğamının və ifaçılarının vurğunu olduğunu söyləyib:** "Çox dinləyirəm. Məndə onların hamısının səs yazıları, diskləri, keçmişdən qalma kasetləri var. Hansını dinləmək istədiyi isə insanın o anki durumuna baxır. Lap qədimlərdən bu günə qədər bütün muğam ifaçılarımız sevilməli və dəyərləndirilməlidir. Hazırda əsl xanəndə adını daşıyanlardan Mənsum İbrahimovu, Nəzakət Teymurovanı, Mələkxanım Əyyubovanı dinləyirəm. Mərhum sənətkarlardan Şövkət Ələkbərovaya, Fatma Mehrəliyevaya, Sara Qədimovaya qulaq asıram. Xan Şuşinski karifeydir, onu hər zaman sevirik. Məsələn, Yaqub Məmmədov kimi dahi sənətkarı və başqalarının ifalarını da bəyənirəm. Azərbaycan musiqisini, xüsusilə də muğamlarımızı çox sevirəm".

**Deputat Elman Nəsirov isə uşaqlıqdan Ağadadaş Ağayevin nəğmələrindən zövq aldığını deyib:** "Yalçın Rzazadənin mahnılarını çox sevirəm. Onun səsindəki titrəyiş mənə zövq verirdi. Fərqli səs tonu var idi. Allah rəhmət eləsin. Flora Kərimovanın ifaları mənə həmişə xoş təsir bağışlayıb, qulaqlarıma hopub. Onun "Bağışla" mahnısına uşaqlıqdan heyranam. O zamanlar Azərbaycan Firəngiz Mütəllimova adlı bir aktrisanı yeni kəşf edirdi ."Səni atxarıram" televiziya tamaşasında Firəngiz Mütəllimova və dəyərli sənətkarımız Yaşar Nuri rol alırdı. Orada Flora xanımın həmin mahnısı səslənirdi".

**Deputat Cavid Osmanov isə Xalq artisti Arif Babayevi çox dinlədiyini xüsusi vurğulayıb:** "Ən çox o xoşuma gəlir. Başqa... Röyanın mahnıları da yaxşıdır. Ona da qulaq asıram".

**Millət vəkili Fazil Mustafa deyib ki, birdən çox xanəndənin yaradıcılığını bəyənir:** "Hər birinin gözəl nəğmələrini dinləyirəm. Seçim çox çətindir. Bir xeyli yaxşı səsi olan müğənnimiz də var. Fərq qoymaqda çətinlik çəkirəm. Məsələn, Şövkət Ələkbərovanı, Nərminə Məmmədovanı, sonra Rəşid Behbudovun ifalarına qulaq asıram. Xüsusilə də R.Behbudovun "Lalələr" mahnısını çox sevirəm".

**Deputat Aqil Abbas isə lakonik, lakin maraqlı cavab verdi: "Qədir Rüstəmov"**.

Sonra Aqil müəllimdən gənc müğənni, yaxud da xanəndələrdən kimi bəyənib, dinlədiyini soruşdum. Onun cavabı isə olduqca tutarlı oldu:

"Qədir həmişə gəncdir və müasirdir".

**Millət vəkili Razi Nurullayev isə daha çox klassik musiqiyə bağlı olduğunu bildirib:** "Opera musiqisini çox sevirəm. Teatrlar açıq olanda tez-tez tamaşalara və operalara gedirdim. İndi də onlayn dinləyirəm və internet üzərindən izləyirəm. Jüzeppe Verdinin bütün operalarına baxmışam və dinləmişəm. Öz musiqimizi də çox sevirəm. İmkan olduqca qarşıma çıxan, xoşuma gələn müğənnilərimizi də məmnuniyyətlə dinləyirəm. Muğamı da sevirəm. Son bir ayda ən çox Mətanət Əsədovanın oxuduğu "Qədrini kim bilər" segahını dinləmişəm. Sözləri Telli Pənahqızınındır. Sənət adamları içində dostlarım var, onlara rəğbətlə yanaşıram. Hərdən görürəm ki, sənət adamlarının üstünə gedirlər, buna üzülürəm".

**Samirə Ərəblinski**

# Tahirə Məmmədqızının efirdə halı pisləşib

## "İstəməzdim tamaşaçılar o görüntülərin şahidi olsunlar"



**Ötən günlərdə "Bazar düzü" verilişinin aparıcısı Tahirə Məmmədqızının efirdə halı pisləşib və huşunu itirib. Bu kadrlar sosial şəbəkələrdə paylaşılıb.**

Əksəriyyət məlum olayda proqramın qonağı müğənni Əli Mirəliyevi günahlandırıb. T.Məmmədqızının onunla mübahisədən sonra vəziyyətinin pisləşdiyini söyləyiblər. "Şərq" də məsələyə aydınlıq gətirmək üçün Tahirə xanımın özü ilə həmsöhbət olub. Həmkarımız həmin hadisənin səhhətindəki problemlərlə əlaqəli olduğunu bildirib: "İki il əvvəl əməliyyat olunmuşam. Bunun gündəm kimi istifadə olunmasını istəmirəm. İmmunitetim zəifdir, bu dönəmlərdə həssasam, gərginlik və iş rejimi də hərdən adamı yorur. Həmin gün özümü yaxşı hiss etmirdim. Düşündüm ki, verilişin sonuna qədər dözərəm. Lakin çəkiliş zamanı təzyiqim qalxdı, ürəyim bir az narahat oldu, halsızlaşdım və müvazinətimi itirdim. Sosial şəbəkələrdə müzakirələr oldu, rəylərə də baxırdım. Ümumiyyətlə, əvvəllər "komment"lərə tez reaksiya verirdim, pis olurdum. İndi əvvəlki kimi fikir vermirəm. Yenə də bilib-bilmədən rəy yazanlara münasibət bildirmək istəyirəm. Əli Mirəliyevlə bağlı şərhlər var idi. Bəziləri onu ittiham etdi ki, xəstə olduğunu bilirdiniz niyə onu əsəbiləşdirdiniz, yaxud da Əli müəllim haqlıdır deyənlər də oldu. Birmənalı söyləyirəm ki, Əli müəllimlə ilərdir dostuq. Onun ailəsi məni tanıyır, mənim də ailəm onu. Qızı ilə çox yaxınıq. Bizim fikir ayrılığımız ola bilər. Bu o demək deyil ki, onunla düşmənik, ya da verilişdə dalaşmışıq. Sadəcə normal müzakirə etmişik. Düşüncələrimiz uyğunlaşmayıb. Verilişdə halımın pisləşməsi qətiyyən Əli Mirəliyevlə əlaqəli deyil. Fikirləşməsinlər ki, biz mübahisə etdik deyə, halım pisləşdi. Sadəcə, səhhətimdə bəzən belə problemlər olur. İstəməzdim tamaşaçılar o görüntülərin şahidi olsunlar. Həmişə çalışmışam ki, problemlərim, şəxsi həyatım gündəmdə olmasın. Bəzən istəmədən də olsa, nələrsə görünür və müzakirə olunur. Allah kimisə sağlamlıqla imtahan etməsin. Hamıya can sağlığı arzulayıram. Bir xəstəliklə mübarizə aparan insan üçün belə hallar normaldır. Təkrar edirəm, Əli Mirəliyevlə, ya da proqramda kiminləsə mübahisə etdiyim üçün halım pisləşməyib".

**Samirə Ərəblinski**

# Tacir Vəfa ilə Şəbnəmi barışa çağırdı

## "Ölüm-itim dünyasıdır, pandemiya tüğyan edir. Belə bir zamanda barış-sülh olsun"





**Müğənnilər Şəbnəm Tovuzlu və Vəfa Şərifova arasındakı qalmaqal səngimək bilmir.**

Bu dəfə üçüncü bir şəxs də məsələyə daxil olunub. Ş.Tovuzlu instaqramda yayımladığı açıqlamasında tanınmış müğənni Tacir Şahmalıoğlunun adını hallandırıb. Vəfaya "keçmişini unutma" deyən Şəbnəm söyləyib ki, Allah Tacir Şahmalıoğlunun canını sağ eləsin. Müğənninin bu sözü sosial şəbəkələrdə müzakirə doğurub. Hər kəs bir sualın cavabı haqda düşünüb: Vəfa Şərifova ilə Tacir Şahmalıoğlu arasında nə baş verib?

**"Şərq" də məsələyə aydınlıq gətirmək üçün T.Şahmalıoğlunun özü ilə əlaqə saxlayıb. Müğənni deyib ki, Vəfa ilə Şəbnəmin münaqişəsi ona xoş deyil:** "Çünki ikisi də mənə yaxın adamlardır. Bu qalmaqalda onların bir çıxarı yoxdur. Əksinə, itirdikləri var. Hər ikisi də karyeralarına ləkə gətirirlər. Bir böyük kimi məsləhət görürəm ki, sevənlərinə mənfi eneri ötürməsinlər. Ölüm-itim dünyasıdır, pandemiya tüğyan edir. Belə bir zamanda barış-sülh olsun. Bunu tövsiyə edirəm. Vəfa xanıma gəlincə... O bir neçə il bundan əvvəl mənə müraciət etdi ki, istəyirəm öz ayaqlarımın üzərində dayanım, müstəqil bir insan olum, sənətdə mənə kömək edin. Mən də yardım göstərmişəm, müğənnilik öyrətmişəm. İndi isə Vəfa tanınmış müğənnidir. Yəni o mənim tələbəmdir. Ayaq üstə qaldırmışam. Ailəsinə, qardaşlarına, bacılarına da dayaq olub. Keçmiş budur. Başqa nə ola bilər ki?".

**Samirə Ərəblinski**

# Zaurun 70 minlik qapısı varmı?

## Sənət adamları bu mövzunu müzakirə edirlər



**Bir müddət öncə "Həmin Zaur" verilişində müğənni Yusif Mustafayevlə aparıcı Zaur Kamal arasında qalmaqal yaşanıb.**

Zaur Y.Mustafayeva "Galenvagen "markalı avtomobilinin olduğunu deyib. Müğənni də bunun qarşılığında aparıcının 70 minlik qapısının olduğunu söyləyib.

"Şərq" xəbər verir ki, Zaur Kamal yenidən bu məsələ haqda danışıb. O, proqramda bunları söyləyib: "Yusif Mustafayev canlı yayımda dedi ki, Zaurun 70 minlik qapısı var. Hara gedirəmsə, onu soruşurlar. Düşünmürlər ki, 70 minə qapı olar? Yoxdur".

Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu ilə meyxanaçı Namiq Məna isə o qiymətə qapının ola biləcəyini deyiblər. Zaur isə qətiyyətlə olmadığını bildirib.

**Samirə**

# Sənət dostları Baloğlan Əşrəfovun məzarını ziyarət ediblər



**Koronadan vəfat edən Əməkdar artist Baloğlan Əşrəfovun məzarını sənət dostları ziyarət ediblər.**

Onların sırasında müğənni Nazənin Salayeva, Eldar Ələkbərov, meyxanaçı Samirə Yusifqızı da olub. "Şərq" xəbər verir ki, Nazənin mərhumun məzarı başında göz yaşı axıdıb. O, həmin videonu instaqram hesabında paylaşaraq "Yoxluğuna inana bilmirəm. Yerin görünür, qəbrin nurla dolsun" qeydini yazıb.

**Samirə**

# “Pandemiyada öpüşmək doğru deyil”



*Cazibədar aktrisa Bade İşçil həmkarlarına səsləndi*

Azərbaycan tamaşaçısının "Əzəl" dizisindən tanıdığı "Şəbnəm" - Bade İşçil "Müsyö" adlı itiylə Nişantaşında gəzinti zamanı görüntülənib.

Uzun müddətdir çəkilişlərdən kənarda qaldığını, yeni layihələr gözlədiyini deyən aktrisa pandemiya dövründə dizilərdə yer alan öpüşmə səhnələri haqqında da fikrini bildirib: ”İşim üçün çox darıxıram. Müstəqil olmağı, sərbəst dolaşa bilməyi, pul qazanmağı özlədim. Neçə ildir çalışmıram, heç bir dizidə rol almamışam. Çox şükür, ”öz yağımda qovruluram”. Hesablarımı birbiriylə uyğunlaşdıraraq, birtəhər keçinirəm. Bizlər ”durnanı gözündən vurmadıq”, bizim üçün də çətindir. Qaldı ki dizilərdə öpüşmə səhnələri, işi nə tələb edirsə, aktyor onu etməlidir. Öpüşmə səhnələri olsa da, olmasa da, onsuz da çəkiliş qrupu eyni ortamda, eyni məkandadır. Amma mən hazırda öpüşmə səhnələrini sağlıq baxımından doğru hesab etmirəm. Özüm də zərurət olmadıqca evdən çıxmıram ”. Bade İşçil heyvansevərliyi ilə də tanınır. Bir övlad anası 37 yaşlı aktrisa ”Diva” Bülənt Ərsoyun 55 tülkü dərisindən tikildiyi iddia edilən və 450 min türk lirəsi dəyərində olan məşhur xəz paltosu barədə də fikrini bildirib: Mən kürk geyinmirəm. Əlimi də vurmuram. Mağazaların önündən keçərkən bunu edənləri ürəkdən qınayıram. Kimsə kürk, xəz palto geyəcək deyə heyvanları incitmək, dərilərini soymaq insanlıqdan kənardır”.

**Məlahət**

## “Hürrəm Sultan" izləyicilərini şoka salıb




**Aktrisa Məryəm Üzərli ilə bağlı xəbər var.**

Qızı Lili Moy ilə fotosunu paylaşan aktrisa izləyicilərini şoka salıb.

Onlar üzündə yenidən estetik etdiyi deyilən Məryəmi tanımaqda çətinlik çəkiblər.

## “Belimdən qan axana qədər məni qamçıladı"

“Əynimdəki köynəyimdən qan su kimi axırdı”



**Aktrisa və aparıcı Opra Uinfri şəxsi həyatı ilə bağlı dəhşətli açıqlamalar verib.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, hazırda dünyanın ən məşhur media nümayəndələrindən biri olan Opra uşaqlıq illərində şiddət gördüyünü və bu travmanı indiyə qədər unuda bilmədiyini deyib:

”Bir dəfə su ilə oynadığım üçün nənəm məni odunla döydü. Ən dəhşətlisi isə kilsəyə gedən zaman oldu. Həmin vaxt nənəm belimdən qan axana qədər məni qamçıladı. Hər tərəfim o qədər ağrıyırdı ki Əynimdəki köynəyimdən qan su kimi axırdı.

Həmin anları xatırlayanda çox pis oluram. Nənəm özü də babam tərəfindən zorakılığa məruz qalırdı. Hərdən gecələr babam gəlib onu çoxlu döyürdü. Nənəm ona görə bəzən yatmırdı”.

## Daha bir serial eşqi gerçək oldu



**Bu ilin martında prodüser əri Altuğ Gültandan boşanan aktrisa Melike İpek Yalovanın yeni sevgilisi olduğu iddia edilib.**

Axşam.az türk mətbuatına istinadən bildirir ki, aktrisa ”Bir zamanlar Çukurova” serialındakı tərəf müqabili Furkan Palalı ilə eşq yaşayır. Onlar haqqında bu xəbərlər çəkiliş meydanından edilən dedi-qodulardan sonra yaranıb.

Ötən gün Palalının Melikenin ad günü münasibətilə ”Doğum günün mübarək, canım partnyorum” sözlərini yazaraq İnstaqram hesabında aktrisa ilə fotosunu paylaşması onlar haqqında yayılan xəbərləri təsdiqləyib.

## Məşhur personajın qızıldan çantası hazırlandı



**”Judith Leiber” markası ”Ulduz müharibələri” filmindəki ”R2-D2” robot personajına bənzəyən çantalar hazırlayıb.**

Ağ-mavi və 24 karatlıq qızılla örtülmüş çantalar bahalı daş-qaşlardan hazırlanıb. Aksessuarın hər biri üçün 9 min ədəd kristaldan istifadə olunub.

Mayın 4-də satışa çıxarılması hazırlanan çantların dəyəri isə 5495 dollar (təxminən 9 min 341 manat) olacaq.

# Ölümlə hədələnir...

*Qonşusunun əlindən evində hərəkət edə bilmir*



İstanbulun Ümraniyyə səmtindəki binada yaşayan 25 yaşlı Ayşənur Atış alt mərtəbədə yaşayan qonşusunun təhdidləri ilə üz-üzədir. İctimai Aviasiya məzunu olan Ayşənur Atış 7 ay öncə Ümraniyyə Tatlısu məhəlləsindəki bir binada mənzil kirayələyib.

Təkbaşına yaşamağa başlayıb. Bir gün alt mərtəbədəki qonşusu qapını döyüb və musiqinin hündürdən səslənməsinə etiraz edib. Ayşənur səs məsələsində ehtiyatlı davranmağa başlayıb. ”Aylarla heç bir problem olmadan yaşadım. Taki eyvanımı yuyanadək. Eyvanımı su ilə yuyarkən alt qonşunun evinə su sızdı. Bundan narahat olan qonşum mühafizəçiləri çağırdı, məni təhqir etdi, söyüşlər yağdırdı. Bir neçə gün sonra yenə qapımı döydü, musiqinin səsinin yüksəkdən çıxmasına etiraz etdi. Səsi azaltdım və səs məsələsinə diqqət etməyə başladım”, deyən Ayşənur Atış qonşunun artıq onu bezdirdiyini, hər cüzi məsələyə görə söyüş söyüb təhqirlər yağdırdığını söyləyib. İki qonşu arasındakı narazılıq bir neçə gün öncə daha da gərginləşib və qonşusu Ayşənuru ölümlə təhdid etməyə başlayıb: ”O gün qonağım vardı, rəfiqəmlə gəzintiyə çıxmağa hazırlaşırdıq. Dikdaban ayaqqabılarımı geyinib mənzildə sağa-sola addımladım. Bir də gördüm qonşu qapını yumruqlayır, təpikləyir”. Ayşənur həmin vaxt baş verənləri telefonla görüntüyə almaq istəyib. Bunu görən qonşu onun üzərinə gəlib və təhdidlər yağdırmağa başlayıb: ”səni öldürəcəyəm, gəbərdəcəyəm, param-parça edəcəyəm ” ”Mən də çarəni polisə şikayət etməkdə gördüm”. Nəticədə iki qonşu da Çakmak Polis Mərkəzinə gedib və biri-birlərindən şikayətçi olublar. Ayşənur Atış onu ölümlə hədələyən qonşu barədə uzaqlaşdırma qərarı çıxarılmasını istəyir. ”Onun qorxusundan itimi gəzintiyə də çıxara bilmirəm. Artıq mənzildə təkbaşına qalmışam. Hərəkət etməyə də qorxuram. Bir səs olan kimi qapıya dayanır, söyür, məni təhqir edir, öldürəcəyi ilə hədələyir”. Qonşu qadının psixi probleminin olub-olmadığı da araşdırılmalıdır. Ayşənur Atış qonşu kabusunun tezliklə bitməsini gözləyir və polisin ədalətli qərar verəcəyinə ümid edir.

**Məlahət**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və “**Azərbaycan**” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, “**Azərbaycan**” nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 795

# Ağacların üzərində "göydələn" inşa etdi

## 10 mərtəbəli binanın sahəsi 900 kvadratmetrdir



**ABŞ-ın Tennesi ştatının sakini öz zəhməti hesabına 20 ilə nəhəng palıd ağacları üzərində "göydələn" inşa edib.**

Ağac ev yalnız təkrar emal edilmiş materiallardan inşa olunub. Hündürlüyü 30 metrə çatan 10 mərtəbəli binanın sahəsi 900 kvadratmetrdir. "Göydələn"in tikintisi zamanı 300 min mismardan istifadə edilib. Ümumilikdə, nəhəng ağac evdə çoxlu sayda keçid, teras, balkon və platformadan başqa, 80 otaq var. Ən maraqlısı odur ki, onun inşasına cəmi 12 min dollar xərclənib. Ağac ev hətta "Ginnesin rekordlar kitabı"na düşüb.

# Dünyada ilk oldu

## Hamilə qadına aid ilk mumiya aşkarlanıb



**Polşada hamilə qadına aid ilk Misir mumiyası aşkar edildi.**

Araşdırma zamanı Varşava şəhərindəki Milli Muzey kolleksiyasında tapılan qədim mumiyanın hamilə bir qadına aid olduğu ortaya çıxdı. "The First News" qəzetinin nəşrinə görə, əvvəlcə keşiş Hor-Djehutinin cəsədi olduğu düşünülən mumiyanın əslində bir qadına aid olduğu aşkarlandı. "Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, mütəxəssislər bir neçə dəfə tomoqrafiya, rentgen və üçölçülü görüntüləmə ilə müayinə etdikləri qadının 26-28 həftəlik hamilə ikən mumiyalandığını müəyyənləşdirdilər. Ölüm səbəbi müəyyənləşdirilməyən qadının 20-30 yaş aralığında olduğu qeyd edildi. Tədqiqatçılar hələ də qadının bətnindəki dölün cinsini müəyyənləşdirə bilməyiblər. Polşa Elmlər Akademiyası Aralıq dənizi və Şərq Mədəniyyətləri İnstitutunun üzvü Voviç Ejmond araşdırma haqqında bu fikirləri söyləyib: "Mumiyalanma zamanı döl mərhumun qarnından götürülməyib. Ona görə bu araşdırma kifayət qədər xüsusidir. Bu o deməkdir ki, mumiyamız dünyada indiyə qədər bətnində döl olan yeganə mumiyadır".

**Yeganə Bayramova**

# Moskvada "hazır" mənzillər tikiləcək



**Moskvada "hazır" mənzillərin istehsalı üçün zavodun inşasına başlanılıb.**

Azərtac bildirir ki, Moskva hökuməti tərəfindən Maruşkinski qəsəbəsində 24,8 hektar ərazidə mənzilin yığılması üçün böyük ölçülü modulların istehsalı məqsədilə robot zavodunun tikilməsinə icazə verilib. Bina tikintisində istifadə ediləcək yeni modullar inşaat keyfiyyəti baxımından Sovet "panelləri"ndən əhəmiyyətli dərəcədə fərqlənəcək. Mənzil modulları əraziyə hazır şəkildə çatdırılacaq. Hər mənzil-modulun sahəsi təqribən 100 kvadratmetrdir. Burada yaşayış sahəsi üçün lazımi mühəndislik və sanitariya kommunikasiyaları həyata keçiriləcək. Yeni modulların köməyi ilə 22 mərtəbəli bina 20 gündən az bir müddətdə yığılacaq.

# Oğlunun ad günü üçün alış-verişə gedirdi, qəzada öldü





**Türkiyədə oğlunun ad günü üçün alış-verişə gedən qadın yolda ölüb.**

Sonxeber.az xəbər verir ki, Zeynəb Apçin "07 ZBZ 06" dövlət nişanlı avtomobili ilə oğlunun ad gününə alış-veriş etmək üçün yola çıxıb. O, bir anlıq avtomobilin idarəsini itirib və E.A-nın idarə etdiyi yük maşınına çırpıb.

Qəza nəticəsində Apçin hadisə yerində dünyasını dəyişib. Bundan əlavə, onun avtomobilində olan 5 yaşlı oğlu Cəmil, yaxınları Selda, Əminə, Xədicə və Arifə Miray Apçin yaralanıblar.

Yaralılar hadisə yerinə çağrılan təcili tibbi yardım vasitəsi ilə xəstəxanaya yerləşdiriliblər.

Yük avtomobilin sürücüsü polis tərəfindən saxlanılıb.



# Orda koronavirus yoxdu!

## *Yerli xalq qapanmaların təsirini hiss etmir*





**Türkiyənin Rize bölgəsinin Əkizdərə əyalətində yaşayanlar "maskalı birisi bura gəldiyində koronavirusu xatırlayırıq", deyir. Əkizdərə əyalətinin Petran düzənliyində indiyədək bir dəfə də koronavirusa yoluxma faktı qeydə alınmayıb.**

Qapanma zamanı ölkə əhalisinin böyük qismi təbiət qoynuna can atır. Əkizdərəyə gələnlər də özlərini təbiət əhatəsində təcrid edirlər. Petranın sakinləri yaz-qış günlərini bağda-bağçada çalışmaqla keçirir. Koronavirusdan qaçıb qapanma müddətini təbiət qoynunda keçirmək istəyənlər Petranda taxta evlərdə qalır, qonşularla təmas saxlamadan təmiz havanın dadını çıxarırlar. Yerli xalq da qapanmaların təsirini hiss etmir. Öz işləri ilə, bağda-bostanda əkin-biçinlə məşğul olurlar. Yerli sakinlərdən Fatma Havuz karantin günlərinin onları təsir altına almadığını deyir: "Səhər qalxıb heyvanlarımızla məşğul oluruq, sonra bağbağça işlərini görürük. Bu gözəl havanın dadını çıxarırıq. "Korona"nı yada da salmırıq. Kənardan gələnlər olanda, yanlarına getmirik, onlara yaxınlaşmırıq". Petlan sakini Ayşə Kahraman isə "televizorda marketlərdəki basabası görürəm, üzülürəm. Kəndlərə gəlsinlər, inəklərə baxar, toyuqları "kışla"yarlar, təbiətlə qarşılaşıb zamanlarını keçirərlər. Burda hər şey təbiidir", söyləyir. Xızır Kahraman da deyir ki, heyvanlara qulluq edir, zamanı "yola verirlər". Yeni gələnlərə uzaqdan "xoş gəldin" deyirlər, yaxına getmirlər. Bahar gəldimi, hər tərəf yam-yaşıldır, indi kəndlər çox gözəlləşib, baxdıqca baxmaq istəyirsən (CNNTürk).

**Məlahət**

# Təpkilər nəzərə alındı

## Polislərin robot it ideyası reallaşmadı



**Nyu-York polisinin robot it ideyası reallaşmadı.**

"Digidog" adı verilmiş robot it ABŞ-ın "Boston Dynamics" şirkəti tərəfindən istehsal edilmişdi və "Spot" robotunun bir modeli idi. "Şərq" "CNNTürk"-ə istinadən xəbər verir ki, polislər üçün xüsusi olaraq istehsal edilmiş robot it əngəllərin üzərindən atlana bilir, səsləri qeydə alır, görüntüləri "yaddaşı"na köçürürdü. Nyu-York polisi "Digidog"u 94 min dollara 1 illiyinə kirayələmişdi. Lakin məsafədən idarə olunan robot itin mənfi, müsbət - hər cür müzakirələrə səbəb oldu. Robot itin bəyənilməməsinin səbəbi qeyri-qanuni nəzarət, müşahidə həyata keçirə biləcəyi və azsaylı qrupların hədəf alınmasında istifadə ediləcəyi iddialarının ortaya atılmasıdır. "Polislər bir robot itin yardımına möhtac qaldımı?" təpkiləri alan Nyu-York Polis Təşkilatı nəhayət, "Digidog"dan əl çəkdi. Polis təşkilatı ilə "Boston Dynamics" arasında avqust ayınadək müqavilə imzalanmış olsa da, Nyu-York polisi robot iti geri göndərməli olacaq. Nyu-York Terrorla Mücadilə şöbəsi şefi Con Miller robot itin "polisə qarşı ucuz əks-təbliğat qurbanı" olduğunu deyib.

Nyu-York bələdiyyə başqanı Bill De Blasio isə qərarı müsbət qarşılayıb: "Yaxşı ki, geri verdilər. Robot it bizə yaraşmayan, yad, Nyu-Yorklulara yanlış mesajlar ötürən bir şey idi".

**Məlahət**

# Modelyer idmanla nəfəs alır

## 5 günə 4,5 kiloqram arıqladı



**Modelyer və dizayner İvana Sert artıq çəkilərindən xilas olmaq üçün ciddi pəhrizə başlayıb.**

Axşam.az türk mətbuatına istinadən bildirir ki, o, 5 günlük detoks düşərgəsinə gedib. Modelyer burada keçirdiyi 5 gün ərzində 4,5 kiloqram arıqlayıb.

İvana tez zamanda bu qədər çəkini çoxlu idman edərək və pəhriz yeməkləri yeyərək atıb. Sert bundan sonra həyat tərzində böyük dəyişikliklər edəcəyini açıqlayıb.